RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 223 (9678) 11 oktyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" (bundan sonra - Milli Strategiya) təsdiq edilsin (əlavə olunur).

2. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2024-cü il*

*"Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın tam mətini ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək"

### Pre-COP29 tədbirinin iştirakçılarına

Hörmətli nazirlər!

Xanımlar və cənablar!

Mən sizi Bakıda keçirilən Pre-COP29 tədbirində salamlayıram.

İqlim dəyişmələri bütün qitələrin ölkələrinə təsir edir, lakin inkişaf etməkdə olan kiçik ada dövlətləri bu təsirlərə daha həssasdır. İqlim dəyişmələri bütün dünyada insanların yaşayışına mənfi təsir göstərir və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində tərəqqiyə mane olur.

Burada Azərbaycan da istisna deyil. Biz hər il çaylarımızda suyun səviyyəsinin azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü görürük. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir.

Azərbaycan bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.

Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpaolunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpaolunan enerji mənbələrinə malikdir.

Azərbaycan həmçinin neft və qaz hasilatından əldə etdiyi gəlirləri "yaşıl enerji"yə yatırır. Bu, açıq şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız "yaşıl gündəliy"i təşviq etmək istiqamətində addımlarımıza mane olmur.

Qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etdiyi Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir.

Qlobal iqlim fəaliyyətinə dəstək vermək əzmimiz COP29 tədbirinə evsahibliyi etmək üçün namizədliyimizin irəli sürülməsinə gətirib çıxardı. Mən Azərbaycana verilən yekdil dəstəyi beynəlxalq ictimaiyyətin ölkəmizə olan inamının təzahürü hesab edirəm. Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək.

İxtiyarımızda bir ildən az vaxtın olmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir.

COP29 sədrliyi "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqlarını nəzərə almaq üçün hamını dinləyir.

Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənəvi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir.

Göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə müvafiq olaraq COP28, COP29 və COP30-un sədrləri qismində BƏƏ, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edildi.

Azərbaycan sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyi hazırlayıb. Mövcud olan geosiyasi gərginlik fonunda "COP atəşkəsi çağırışı"nın aktuallığı daha da artır.

Qeyd etmək lazımdır ki, bu ilin sentyabrında Bakıda İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Bununla belə, qarşımızda duran əsas vəzifə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni maliyyə məqsədi əhəmiyyətli artım tələb edir.

COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz. Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ "Şamaxı məsləhətləşmələri" iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər.

COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur.

Dəfələrlə vurğulandığı kimi, Bakı COP-u multilateralizm üçün həlledici sınaq olacaq. Beynəlxalq ictimaiyyətin uğursuzluğa düçar olmağa ixtiyarı yoxdur və Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə bağlı razılaşma əldə olunmalıdır. Mən COP29-da bizim ümumi uğurumuz kimi tarixə düşəcək tarixi razılaşmanın - "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm.

Burada bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına toxunmaya bilmərəm. Bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz.

Mən "yaşıl dünya" naminə həmrəylik ruhunda birgə fəaliyyət göstərmək üçün noyabrın 12-dən 13-dək Bakıda keçiriləcək Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində dövlət və hökumət başçılarını salamlamağa şad olaram.

Sonda sizə gələn ay Bakıda uğurlu nəticələrin əldə olunması ilə nəticələnəcək səmərəli müzakirələrin keçirilməsini arzulayıram.

Sağ olun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2024-cü il*



## Gözlərindəki tiri görməyənlər

Noyabrın 5-də ABŞ-də prezident seçkiləri keçiriləcəkdir.

Namizədlərin "erməni səsləri"nə ciddi ehtiyacları var.

Dövlət Departamentində çalışanlar da yenidən vəzifə qazanmaq üçün erməni diasporuna möhtacdırlar.

"Hadisələri qabaqlamaq", ermənilərin xoşuna gəlmək üçün müxtəlif hoqqabazlıqlara ehtiyac duyulur.

"Ərəb baharları", "rəngli inqilablar" ssenarisinin ustası sayılan ABŞ Dövlət Departamenti bu dəfə "mürəkkəb süjet"ə əl atıb:

Azərbaycana növbəti sanksiya tətbiq etməkdən ötrü ABŞ Dövlət Departamentində məktub hazırlanıb...

Sonra bu məktubu ABŞ Konqresinə göndərərək konqresmenlərə həmin məktubu öz adlarından Dövlət Departamentinə ünvanlamağı tapşırıblar.

Beləliklə, öz məktubları Konqresi fırlandıqdan sonra 60 nəfərin imzası ilə yenidən özlərinə qayıdıb!

Məsələni uzadıb qabaqcadan ictimailəşdirməkdə məqsəd isə Azərbaycanın iradəsinə təsir göstərərək istədiklərini ona qəbul etdirməkdir.

Ay hay!

Keçdi o dövran!

Azərbaycan torpağını da azad edib, ordusunu da əvvəlkindən daha güclü vəziyyətə gətirib, ölkə daxilində isə elə milli birlik yaranıb ki, heç bir "xarici çömçə" onu qarışdıra bilməz!

Qaldı iqtisadi-ticari məsələlərə, Azərbaycan iqtisadiyyatı çox güclüdür, daim inkişafdadır, TDT-də və yeni üzv olduğu və olacağı qurumlarda öz maraqlarını asan və rahatlıqla təmin edir.

Hazırda Azərbaycanın Qərb və ABŞ ilə "güzəştli dostluğa" ehtiyacı yoxdur, Avropa dövlətlərinin isə Azərbaycan qazına ehtiyacları var!

Qaldı ABŞ-nin "özü-özünə məktub" oyunbazlığına, bu, yeni məsələ deyil.

Dünyada, beynəlxalq hüquqda, ədliyyədə təqsiri müəyyənetmə qaydası və proseduru mövcuddur.

Bütün ölkələrdə ona ciddi əməl olunur.

Hətta beynəlxalq məhkəmələr də şikayətləri araşdıranda həmin tələblərə əməl olunub-olunmadığına diqqət yetirirlər.

Bu, artıq əsrlər boyu tətbiq edilən və hamının bildiyi qaydalardır.

Kimisə nədəsə suçlayanda əvvəlcə onun təqsirinin olub-olmadığı aydınlaşdırılır.

Başqa sözlə, sənədlər, sübutlar toplanılır, faktlar araşdırılır, şahidlərin ifadələri dinlənilir, onların həqiqətə uyğunluğu müəyyən edilir.

Bütün bunlar ibtidai istintaqın gördüyü işlərdir.

Sonra məhkəmə istintaqı başlayır və yenidən şahidlər dindirilərək, üzləşdirilərək təqsirin mövcudluğu, dərəcəsi qiymətləndirilir.

"Dünya hakimi" funksiyasını öz üzərinə götürən ABŞ isə belə etmir.

Onun sözü, mövqeyi hadisələri də, şahidi də, faktları və sübutları da əvəz edir.

Kimi istəsə birbaşa "təqsirkar" elan edərək öz "hökmü"nü verir.

Məşhur Azərbaycan atalar misalında deyildiyi kimi: "Özü doğub, göbəyini də özü kəsir".

→ 5

## COP29 çərçivəsində elan edilən "Birgə Atəşkəs Çağırışı" Qoşulmama Hərəkatı tərəfindən dəstəklənib

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının 29-cu İqlim Dəyişmələri Konfransına (COP29) sədrliyi çərçivəsində Beynəlxalq Sülh Günü kimi qeyd olunan 21 sentyabr tarixində elan etdiyi "Birgə Atəşkəs Çağırışı" Qoşulmama Hərəkatının bütün üzv dövlətləri tərəfindən dəstəklənib.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Beləliklə, təşəbbüsə indiyə qədər 127 ölkə qoşulub. Bu təşəbbüs münaqişə və iqlim dəyişməsi arasındakı əlaqənin və ən həssas qrupları qorumaq üçün kollektiv həll yollarının tapılmasının vacibliyini vurğulamaq, eləcə də xalqlar arasında sülhə gətirib çıxara biləcək müsbət impulsu və əməkdaşlığı təşviq etmək məqsədi daşıyır. Çağırışda bütün tərəflərdən COP29 sessiyasının keçirildiyi noyabr ayı ərzində atəşkəsə riayət etmək xahiş olunur və COP29-un fundamental mesajı xüsusunda bəşəriyyətimizin siyasi problemlərin öhdəsindən gələ və həmrəy ola biləcəyinə inam ifadə edilir.

"Birgə Atəşkəs Çağırışı" dövlətlərlə yanaşı, mindən artıq beynəlxalq təsisat, özəl sektor təmsilçiləri, vətəndaş cəmiyyəti qurumları və nüfuzlu ictimai xadimlər tərəfindən dəstəklənir.

Təşəbbüsün tam mətni ilə aşağıdakı internet səhifəsində tanış olmaq mümkündür: **https://cop29.az/az/news/cop29-presidency-officially-launches-joint-solemn-appeal-for-a-cop29-truce.**

## İrəvanın sülh məkri

### Ermənistanın sülh sazişini yarımçıq imzalamaq istəyi gələcəkdə Azərbaycana qarşı ərazi iddiası irəli sürə bilmək niyyətindən qaynaqlanır

İrəvandan fərqli olaraq, Bakı müxtəlif platformalarda aparılmış sülh danışıqları prosesinin müsbət nəticə verməsi üçün bütün addımları atıb.

Beləliklə, hazırda Azərbaycanla Ermənistan arasında sülhə nail olunması və münasibətlərin normallaşdırılması üçün zəmin yaranıb. Amma görünən odur ki, Ermənistan tərəfi xəstə erməni təfəkküründən əl çəkə və reallığı düzgün dəyərləndirə bilmir. Ermənistanın sülh sazişi ilə bağlı layihədə öz əksini tapması zəruri olan müddəaları çıxarması da bunu təsdiq edir.

Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın müstəqillik bəyannaməsinə açıq şəkildə istinad edən bu ölkənin konstitusiyası olmaqla, çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır. Bunu etmək istəməyən Ermənistanın rəsmilərinin sülh sazişini imzalamağa hazır olduqlarını bəyan etmələri isə erməni məkrindən başqa bir şey deyil.

→ 7

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il avqustun 17-də Bakı şəhərində və 2024-cü il avqustun 23-də Bonn şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il sentyabrın 4-də Bakı şəhərində və 2024-cü il sentyabrın 9-da Bonn şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının müəyyən edilmiş Prezidenti (President-Designate) onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 450 **QƏRAR** Bakı şəhəri, 9 oktyabr 2024-cü il

### "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 may tarixli 70 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1546 (Cild I); 2024, № 1, maddə 70) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

2. Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Turizm haqqında" qanunda dəyişiklik ediləcək

**Oktyabrın 10-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin video-konfrans formatında növbəti iclası keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Musa Quliyev gündəliyə ikinci oxunuşda "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin daxil edildiyini diqqətə çatdırıb. Bildirilib ki, qanuna təklif olunan əlavə və dəyişikliklər ölkəmizdə mövcud olan və gələcəkdə istifadəyə veriləcək turizm və rekreasiya zonalarının ərazilərində qadağan olunacaq fəaliyyət növlərini müəyyənləşdirməklə yanaşı, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə zəmin yaradacaq.

Komitə sədri Musa Quliyev bildirib ki, qanun layihəsi Milli Məclisdə səsə qoyularaq birinci oxunuşda qəbul edilib, layihə ilə bağlı komitəyə heç bir irad və təklif daxil olmayıb.

Fikir mübadiləsi şəraitində keçən müzakirələrdə komitənin sədri Musa Quliyev, sədr müavini Elşad Musayev, üzvləri Vüqar Bayramov, Soltan Məmmədov, Göydəniz Qəhrəmanov, Sevinc Hüseynova və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək, ölkəmizdə turizm sektorunun inkişafının müxtəlif aspektlərinə dair məsələlərə toxunublar, qanun layihəsi ilə bağlı öz fikir və qeydlərini səsləndiriblər.

Müzakirəyə çıxarılan qanun layihəsi ikinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

## Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasına işgüzar səfərə gedib





**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 10-da Tacikistan Respublikasına işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Düşənbə Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədr müavini Mavsuma Muini, Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Sahibə Qafarovanın Düşənbədə keçirilən "Tacikistan Respublikası Konstitusiyasının 30-cu ildönümü" beynəlxalq parlament konfransında çıxışı və digər tədbirlərdə iştirakı nəzərdə tutulub.

***"Azərbaycan"***

## Milli Məclisin Sədri Sahibə Qafarova və beynəlxalq konfransın iştirakçıları Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşüblər



**Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30-cu ildönümü münasibətilə təşkil olunan Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə bu ölkədə işgüzar səfərdədir.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, oktyabrın 10-da Milli Məclisin Sədri Sahibə Qafarova və konfransda iştirak edən digər ölkələrin parlament nümayəndə heyətlərinin rəhbərləri Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşüblər.

Qonaqları salamlayan Tacikistan Prezidenti bu beynəlxalq konfransın əhəmiyyəti barədə fikirlərini bildirib. O, Konstitusiyanın qəbulunun Tacikistanın inkişafında, o cümlədən ölkədə parlamentarizm ənənələrinin möhkəmlənməsində rolu haqqında danışıb. O, Konstitusiyanın qəbulunu ölkədə siyasi islahatların və dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda ilk və davamlı addımlardan biri kimi qiymətləndirib.

Emoməli Rəhmon həmçinin ölkələr arasında əməkdaşlığın mühüm aspektləri, o cümlədən mədəni və tarixi oxşarlığa əsaslanan humanitar əlaqələr haqqında fikirlərini bildirib, ölkələrimizin qanunvericilik orqanlarının bu prosesin konstruktiv inkişafına ciddi töhfələr verə biləcəyini vurğulayıb.

Söhbət zamanı parlamentlərin beynəlxalq və regional parlamentlərarası strukturlar çərçivəsində əməkdaşlığına da diqqət yetirilib.

***"Azərbaycan"***

## MDB PA-nın komissiya iclasları keçirilib

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, oktyabrın 10-da MDB PA-nın videokonfrans formatında komissiya iclasları keçirilib. MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvləri - Milli Məclisin komitə sədri Arzu Nağıyev Təhlükəsizlik və yeni çağırışlarla və təhdidlərlə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə birgə komissiyanın, Müdafiə və təhlükəsizlik üzrə daimi komissiyanın, deputat Nizami Səfərov Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyanın iclaslarında iştirak ediblər.




İclaslarda MDB PA çərçivəsində qanunvericilik tənzimləmələri üzrə əməkdaşlıq imkanları, gündəlikdə olan model qanun layihələri, model qanunlara dəyişikliklər, digər qanunvericilik tənzimləmələrinə dair tövsiyə layihələri kimi məsələlər müzakirə olunub.

Onlayn iclaslarda həmçinin təşkilati məsələlərə baxılıb, daimi komissiyaların sədrləri və sədr müavinləri seçilib, hər üç komissiyanın növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

Milli Məclisin üzvləri - Nizami Səfərov Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyanın sədri, Arzu Nağıyev MDB PA-nın Müdafiə və təhlükəsizlik üzrə daimi komissiyanın sədr müavini seçiliblər.

***"Azərbaycan"***




# Bakıda Pre-COP29 konfransı başlayıb






**Oktyabrın 10-da Bakıda Pre-COP29 konfransı işə başlayıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən tədbir "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusuna həsr olunub.**











Əvvəlcə COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində çıxış edən BMT Baş katibinin birinci müavini Amina Mohammed qlobal temperaturun 1,5 dərəcədən yuxarı artmasının astanasında olduğunu və "Milton" qasırğası kimi dəhşətli nəticələrin müşahidə edildiyini deyib. Onun sözlərinə görə, beynəlxalq ictimaiyyəti müxtəlif mübarizə tədbirləri gördüyü üçün insanların hələ də ümidi var: "COP29 bu impulsu inkişaf etdirməli, ambisiya və götürülmüş öhdəlikləri real iqtisadi nəticələrə çevirməlidir. Noyabrda biz inkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemin miqyasına uyğun gələn yeni iddialı iqlim maliyyəsi hədəfini razılaşdırmalıyıq".

COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, iqlim dəyişmələrinin yaratdığı problemləri sərhədlər, dar maraqlar çərçivəsində həll etmək olmaz. "Biz bir yerdə işləməli, açıq və dürüst dialoqda iştirak etməliyik. Sessiya COP29-da uğurlu danışıqların aparılması üçün təşkil olunub. Gündəlikdə duran məsələlərin əhəmiyyətini nəzərə alaraq biz mümkün qədər onları əvvəlcədən razılaşdırmalıyıq.

Milli müəyyənləşdirilmiş töhfələr sənədləri (NDC) COP29 sədrliyinin əsas prioritet istiqamətidir. Məqsədimiz odur ki, fəaliyyətlərə və inkişaf edən ölkələrə təkan verək və problemin mahiyyətini hər kəsə çatdıraq. Biz mümkün elementlər üzrə dəyişiklikləri görməliyik. Diqqəti təməlin qoyulmasına ciddi yönəltməliyik ki, digər məsələlər üzrə də müzakirələr müvəffəqiyyətli keçsin. Eyni zamanda məsuliyyətimizi ciddi qəbul etməli, müddətləri nəzərə almalı və həllər ortaya qoymalıyıq. Məqsədlərə nail olunmasında şəffaflığı, əlçatanlığı, ədaləti təmin etməliyik. Paris Sazişinin 6-cı maddəsi üzrə işləri tamamlamaq istəyirik. Bu, maliyyə və texniki resursları səfərbər etmək üçün çox vacibdir. Çünki bu, iddialarımızı irəli aparacaq və karbon bazarlarının yaradılması ilə əlaqədar daha ciddi nailiyyətlər ortaya qoyacaq. Hazırda niyyətləri konkret nəticələrə çevirməli olduğumuzu düşünürük. Biz körpülər yaradırıq, lakin tələb olunan daha böyükdür", - deyə nazir bildirib.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cəbirin sözlərinə görə, bugünkü narahat və parçalanmış dünyada 1,5 dərəcə hədəfinə çatmaq və iqlim böhranının ön cəbhəsində olanları qorumaq üçün kollektiv səyləri ikiqat artırmaq lazımdır. "Beynəlxalq ictimaiyyət ötən il Dubayda əldə edilmiş uğuru builki COP29-da inkişaf etdirməlidir. COP29-da maliyyələşdirmə məsələləri müzakirə edilməlidir. Maliyyə ən vacib məsələdir, BƏƏ konsensusunun təməl daşı idi. Vəsaitlər ən həssas əhali təbəqələrinin dəstəklənməsinə yönəldilməlidir ki, onların iqlim dəyişikliklərinə davamlılığı təmin edilsin və nəticələrlə mübarizədə dəstək göstərilsin", - deyə COP28 prezidenti bildirib.

Maliyyənin iqlim gündəliyində ən vacib mövzulardan biri olduğunu deyən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Still qeyd edib ki, COP29 konkret nəticələrə nail olmağa kömək edən stimullaşdırıcı konfrans olmalıdır: "Bu, ötən il Birləşmiş Ərəb Əmirliklərində tarixi konsensus çərçivəsində götürülmüş öhdəlikləri həyata keçirməyə və real iqtisadiyyata fayda verməyə kömək edəcək. Aydındır ki, maliyyə bu il konkret nəticələrə çatmaqda əsas rol oynayır".

O qeyd edib ki, COP29 həm də Paris Sazişinin 6-cı maddəsi üzrə iddialı nəticələrin əldə olunmasını təmin etməlidir.

Köməkçi icra orqanının (SBI) sədri Nabil Munir öz çıxışında artıq bütün dünyada milli töhfələrin yenilənməsi prosesinin başlandığını diqqətə çatdırıb.

"Biz iqlim problemləri ilə bağlı həlledici işlər görməli olduğumuz vaxta gəlmişik.

Hazırda iqlim prosesləri ilə bağlı olduqca vacib mərhələdir. Prioritet istiqamətlər daha dərindən araşdırılmalıdır. COP29 iqlim problemləri istiqamətində görülən işlərə və bizim fəaliyyətimizə nəzər salmağa imkan yaradan platformadır. Hər kəsi bu sahədə daha cəsarətli addımlar atmağa çağırıram. Bu tədbir həlledici rol oynamalıdır. İnsanlar dünya tarixində baş verən ən isti ilin, eyni zamanda buzlaqların əriməsinin şahidi oldu. Düşünürəm ki, biz innovativ tərəfdaşlıqlar qurmalıyıq", - deyə Nabil Munir əlavə edib.

Konfrans yan tədbirlərlə və plenar sessiyalarla davam edib.

Tədbir zamanı Azərbaycanla Braziliya arasında anlaşma memorandumu imzalanıb. "Bakıdan Beleme (B2B) İqlim Tərəfdaşlığı" üzrə Anlaşma Memorandumunu (Memorandum of Understanding on the "Baku to Belem (B2B) Climate Partnership") COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliyanın Xarici İşlər Nazirliyinin İqlim, Enerji və Ətraf Mühit üzrə Katibi Andre Correa do Lago imzalayıblar.

Konfransın işinə oktyabrın 11-də yekun vurulacaq.






# Pre-COP29 çərçivəsində "Troyka ölkələrinin 1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi" mövzusu müzakirə edilib

**Pre-COP29 konfransı çərçivəsində COP28, COP29 və COP30 sədrliklərinin birgə təşkilatçılığı ilə "Troyka ölkələrinin 1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi" mövzusunda yan tədbir keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP29 çərçivəsində İnsan İnkişafı Günü keçiriləcəyini deyib: "Belə ki, bütün tərəfləri cəlb etməklə insan inkişafı, irriqasiya və gənclərlə bağlı tədbir olacaq. Biz ambisiyaları genişləndirməli, ölkələrə istixana qazlarını azaltmalarına imkan yaratmalıyıq. Şəffaflıq inam və etibar quruculuğu istiqamətində vacib addımdır. Bizim fəaliyyətimiz koordinasiyalı olmalı, iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə cəlb etməliyik. Bizim fəaliyyətimiz iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılmasına hesablanmalıdır. İqlim dəyişmələri ilə mübarizə fondunun yaradılması dövlət və özəl tərəfləri bir araya gətirəcək".

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev COP29-un iqlim dəyişmələri problemində praktiki həllər tapmağa imkan yaratdığını diqqətə çatdırıb: "Düşünürəm ki, COP29 bu istiqamətdə həlledici rol oynayacaq. Biz təcrübələrlə yanaşı, eyni zamanda geniş tərəfdaşlıqlar qurub, mövcud tərəfdaşlıqları inkişaf etdirəcəyik. Dayanıqlı gələcək qurmaq, 1,5 planına sadiq qalmaq bizim əsas hədəfimizdir".

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cəbir deyib: "COP29 ekologiyanın qorunması istiqamətində harmoniya yaratmalı, bir körpü rolu oynamalıdır. Düşünürəm ki, burada müzakirə olunan səylər öz bəhrəsini verəcək. Dünyanın ən böyük iqlim üzrə tədbiri hər bir ölkənin üzərinə düşən işləri açıq şəkildə müzakirə etməyə şərait yaradır. Beynəlxalq əməkdaşlıq hər bir səviyyədə mühümdür. Bu əməkdaşlıq çərçivəsində qabaqcıl təcrübələri paylaşmalı, texnologiyaları tətbiq etməliyik. İnvestisiyalar karbonsuzlaşmağa yatırılmalıdır. Biz real iqlim dözümlülüyü yaradırıq və karbon qazının azaldılması istiqamətində addımlar atırıq".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Still qeyd edib ki, hər hansı bir işdə nəticə əldə etmək yalnız əməkdaşlıq çərçivəsində mümkündür: "Biz COP29 çərçivəsində iqlim problemlərinin təsir etdiyi bütün sahələrdə yeni həll yolları tapmaq istəyirik. COP29 yeni həll yolları tapmaq üçün stimullaşdırıcı rol oynamalıdır. Paris Sazişində qeyd olunanlar bütün ölkələrin gələcək ekologiya siyasəti üçün xəritədir. Düşünürəm ki, Azərbaycanda keçirilən COP29 bu xəritəyə işıq tutacaq".

Braziliyanın Xarici İşlər Nazirliyinin İqlim, enerji və ətraf mühit üzrə katibi Andre Korrea do Laqo deyib: "Müşahidələr göstərir ki, çətin durumdayıq, ciddi parçalanma, pərakəndəlik var. Lakin gələcək üçün addım atmalı, çoxtərəfliliyi təşviq etməliyik. Biz BƏƏ konsensusunu qiymətləndirir, Bakıdan yüksək nəticə gözləyirik. Braziliya çoxtərəfli legitimliyə inanır. Odur ki, beynəlxalq əməkdaşlıq istiqamətində bizə güvənə bilərsiniz. Ümumilikdə gördüyümüz işlər çoxtərəfliliyi təşviq etməlidir".

Avropa İttifaqının iqlim fəaliyyəti üzrə komissarı Vopke Hoekstranın sözlərinə görə, geosiyasi problemlər çox mürəkkəb məsələdir, ancaq bu, bəhanə ola bilməz: "Dubayda əldə olunan nailiyyətlər genişləndirilməlidir. Bizim 2050-ci ilədək xalis sıfır karbon emissiyasına nail olmaq məqsədimiz var. Bu sahədə elmi araşdırmalar üçün digər ölkələrə dəstək olmaq vacibdir. Bir sıra layihələr var ki, bunların icrası mütəxəssislərin iştirakı ilə sürətləndirilməlidir. İqlim dəyişikliyinin Yer kürəsinə təsiri və ölkələrin bu istiqamətdə görməli olduğu işlər müzakirə olunmalıdır. Biz hədəflərimizin 90 faizini 2040-cı ilə qədər yekunlaşdırmaq istəyirik".

BMT Baş katibinin birinci müavini Amina Mohammed qeyd edib ki, COP29 kollektiv məqsədin müəyyənləşdirilməsi istiqamətində bir testdir: "Dünyanın belə tədbirlərə böyük ehtiyacı var. Qlobal dünya bacardığımızı görməlidir. Qarşıdakı aylar çox önəmlidir. Cəsarətli olmalı, fəaliyyəti gücləndirməliyik. Geriyə yol yoxdur, yalnız irəli gedəcəyik. Troyka bizdən NDC ilə bağlı koordinasiya olunmuş dəstək tələb edir. Biz lazım olan dəstəyi üzərimizə götürməklə bağlı tələb edirik ki, bütün sektorlar hökumət səviyyəsində əməkdaşlıq etsinlər. Bütün tərəfdaşları dəstək göstərmək üçün bizə qoşulmağa səsləyirəm. Bizim vaxtımız tükənir. Beynəlxalq ictimaiyyət olaraq öhdəliklər götürmüşük. Biz milli öhdəliklərin yerinə yetirilməsinə baxacağıq. Troyka çərçivəsində milli öhdəliklərin necə həyata keçirilməsini monitorinq etmək və milli iqtisadiyyatlardakı dəyişiklikləri izləmək niyyətindəyik".

Sinqapurun davamlılıq və ətraf mühit naziri Qreys Fu Hay Yen beynəlxalq əməkdaşlığın vacibliyindən danışıb: "İqlim dəyişmələri məqsədlərinə yalnız beynəlxalq əməkdaşlıqla nail olmaq olar. Eyni zamanda innovativ maliyyələrin cəlbinə ehtiyac var. Biz bu məsələdə israrlıyıq. Eyni zamanda karbonsuzlaşdırma layihələri ilə bağlı özəl şirkətləri də cəlb etməliyik".

COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai deyib: "Tərəflərin Paris Sazişinin şərtlərinə əməl etməsi üçün onlara dəstək göstərmək vacibdir. Biz prosesin inklüziv şəkildə həyata keçirilməsinə imkan yaratmalıyıq. Regionlar və şəhərlər ambisiyalarını genişləndirə, vətəndaş cəmiyyətləri və yerli icmalar milli iqlim dəyişikliyi planlarının icrasına çox böyük töhfə verə bilərlər. Biz gələcək nəsillərə təmiz və sağlam gələcək ötürmək istəyirik. Yeni imkanların yaradılması bizim üçün olduqca vacibdir. İqlim dəyişikliyi ilə mübarizədə dövlət və özəl sektor tərəfdaşlığı çox önəmlidir. Bəzi sahələr var ki, orada əməkdaşlıq bizim üçün çox önəmlidir".

Birləşmiş Şəhərlər və Yerli Hökumətlər Təşkilatının baş katibinin xüsusi müşaviri Firdaous Oussidhoum iqlim dəyişikliyinin fəsadları barədə danışıb: "İqlim dəyişikliyinin fəsadları sərhədləri aşır. Ölkələr artıq düzgün strategiya yaratmalıdırlar. İqlim probleminin həlli beynəlxalq əməkdaşlıq ilə mümkündür".

Keniyanın Ətraf Mühit, İqlim Dəyişikliyi və Meşə Təsərrüfatı Nazirliyinin Baş katibi Festus Ng'eno qeyd edib ki, beynəlxalq əməkdaşlıq iqlim dəyişikliyi ilə mübarizədə ən vacib alətlərdən biridir: "Bu istiqamətdə COP29 olduqca ideal platformadır. Afrika ölkələri arasında beynəlxalq əməkdaşlıq genişləndirilməlidir. Afrika ölkələri iqlim dəyişikliyinin təsirlərinə ən ağır formada məruz qalan ölkələrdir. Qida təhlükəsizliyi, su problemləri ilə mübarizə bizim xalqların mövcud reallığıdır. Əməkdaşlıq bizim yeganə çıxış yolumuzdur".

Tədbir müzakirələr və sual-cavab qismi ilə davam edib.

# Gözlərindəki tiri görməyənlər



**Azərbaycan bir dövlət olaraq özünün təhlükəsizliyini tam təmin edib!**

**Artıq keçdi o dövrlər ki, kimsə Azərbaycan ərazilərini ələ keçirərək illərlə işğalda saxlaya!**

*44 günlük Zəfər müharibəsində Azərbaycan ərazilərini də azad etdi, işğalçı ordunu da qarşısında diz çökdürdü, ona kapitulyasiya aktını da imzalatdırdı, ərazi bütövlüyünü və suverenliyini də tam bərpa etməklə Cənubi Qafqazın ən qüdrətli dövləti olduğunu həm hərb meydanında, həm diplomatiya savaşında, həm də informasiya müharibəsində əyani şəkildə sübuta yetirdi!*

Bu gün isə çaşanlara, özgə xəyallara düşənlərə, üzünə gülərək arxasında düşmənçilik edənlərə onunla təhdid, təzyiq, hədə tonunda danışmağın mümkünsüzlüyünü, belə vəziyyətdə yalnız özlərinə ziyan gətirəcəklərini başa salır!

**Heç kim çaşmasın və ağlı köhnə zamanlara getməsin!**

**Azərbaycanın kimsədən nə qorxusu, nə asılacağı, nə də çəkinəcəyi var!**

*Kiməsə "kiçik qardaşlıq" etməyi ağlının ucuna belə gətirmir!*

*Yalnız bərabərhüquqlu, qarşılıqlı hörmətə və maraqların təmininə, beynəlxalq hüququn prinsiplərinə əsaslanan əməkdaşlığa hazırdır!*

**Heç bir dövlət, heç bir parlament, heç bir siyasətçi Azərbaycanla Ermənistanı dəyişik salmasın!**

Dünya erməniliyi mövqeyindən, vəzifəsindən, statusundan asılı olmayaraq insanları özündən borclu vəziyyətə sala bilir.

Bundan ötrü korrupsiya, rüşvət, erməni arvadı vasitəsilə ələalma, seçkilərdə səsvermə və digər sınanmış üsullardan istifadə olunur.

ABŞ konqresmeni Menendezin başına gələnlər deyilənlərə sübutdur.

Erməni arvadı vasitəsilə yoldan çıxarılan Menendez korrupsiya, rüşvət qalmaqallarına bulaşaraq siyasi ömrünü şərəfsizliklə başa vurdu.

**Dünya erməniliyi, onun müxtəlif dövlətlərdə fəaliyyət göstərən diasporları baş nazir və prezidentləri belə özlərindən asılı vəziyyətə sala bilirlər.**

MƏSƏLƏN:

**ABŞ Prezidenti Bayden seçkilər zamanı aldığı "səs borcu"nu qaytarmaqdan ötrü mart çıxışlarının birində "erməni soyqırımı" ifadəsini işlətmək məcburiyyətində qaldı.**

Doğrudur, bu ifadə heç nəyi dəyişmədi, axı yalan və uydurma nəyi dəyişəcəkdi ki...

Erməni yalanını qorumağın bir yolu var ki, o da arxivlərin qapısını bağlamaqla əsl həqiqəti hamıdan gizlətməkdir.

Bunu da Ermənistan məharətlə bacarır.

**Fransa Prezidenti Makronun isə ermənilərə o qədər borcu var ki, nə qədər ermənidən artıq ermənilik etsə də, Ermənistanın maraqlarını Fransanın maraqlarından üstün tutsa da, onu ödəyib qurtara bilmir:**

* Ermənistanı dayanmadan silahlandırır;

* Avropa İttifaqını və Avropa Şurasını əlində alətə çevirərək Azərbaycana qarşı yönəldir, erməni yalanlarının təbliğatçısına və müdafiəçisinə çevirir.

* Pensiyaçı jandarmlardan ibarət casuslar şəbəkəsi yaradaraq əllərində durbin Azərbaycanla Ermənistan sərhədində yerləşdirir.

* Paris merini "Humanitar fəlakət" şousunun iştirakçısına çevirərək Laçın yoluna TIR-larla ərzaq göndərir.

* BMT-də Azərbaycan əleyhinə yalan və ədalətsiz qərarlar çıxarmaqdan ötrü əldən-ayaqdan gedir.

*Çifayda!*

*Çaxçaxın çaqqıldamaqdan başqa işi olmur!*

❖ ❖ ❖

**Noyabrın 5-də ABŞ-də prezident seçkiləri keçiriləcəkdir.**

**Namizədlərin "erməni səsləri"nə ciddi ehtiyacları var.**

*Dövlət Departamentində çalışanlar da yenidən vəzifə qazanmaq üçün erməni diasporuna möhtacdırlar.*

*"Hadisələri qabaqlamaq", ermənilərin xoşuna gəlmək üçün müxtəlif hoqqabazlıqlara ehtiyac duyulur.*

"Ərəb baharları", "rəngli inqilablar" ssenarisinin ustası sayılan ABŞ Dövlət Departamenti bu dəfə "mürəkkəb süjet"ə əl atıb:

Azərbaycana növbəti sanksiya tətbiq etməkdən ötrü ABŞ Dövlət Departamentində məktub hazırlanıb...

Sonra bu məktubu ABŞ Konqresinə göndərərək konqresmenlərə həmin məktubu öz adlarından Dövlət Departamentinə ünvanlamağı tapşırıblar.

**Beləliklə, öz məktubları Konqresi fırlandıqdan sonra 60 nəfərin imzası ilə yenidən özlərinə qayıdıb!**

*Məsələni uzadıb qabaqcadan ictimailəşdirməkdə məqsəd isə Azərbaycanın iradəsinə təsir göstərərək istədiklərini ona qəbul etdirməkdir.*

**Ay hay!**

**Keçdi o dövran!**

Azərbaycan torpağını da azad edib, ordusunu da əvvəlkindən daha güclü vəziyyətə gətirib, ölkə daxilində isə elə milli birlik yaranıb ki, heç bir "xarici çömçə" onu qarışdıra bilməz!

Qaldı iqtisadi-ticari məsələlərə, Azərbaycan iqtisadiyyatı çox güclüdür, daim inkişafdadır, TDT-də və yeni üzv olduğu və olacağı qurumlarda öz maraqlarını asan və rahatlıqla təmin edir.

**Hazırda Azərbaycanın Qərb və ABŞ ilə "güzəştli dostluğa" ehtiyacı yoxdur, Avropa dövlətlərinin isə Azərbaycan qazına ehtiyacları var!**

Qaldı ABŞ-nin "özü-özünə məktub" oyunbazlığına, bu, yeni məsələ deyil.

*Dünyada, beynəlxalq hüquqda, ədliyyədə təqsiri müəyyənetmə qaydası və proseduru mövcuddur.*

*Bütün ölkələrdə ona ciddi əməl olunur.*

Hətta beynəlxalq məhkəmələr də şikayətləri araşdıranda həmin tələblərə əməl olunub-olunmadığına diqqət yetirirlər.

Bu, artıq əsrlər boyu tətbiq edilən və hamının bildiyi qaydalardır.

**Kimisə nədəsə suçlayanda əvvəlcə onun təqsirinin olub-olmadığı aydınlaşdırılır.**

**Başqa sözlə, sənədlər, sübutlar toplanılır, faktlar araşdırılır, şahidlərin ifadələri dinlənilir, onların həqiqətə uyğunluğu müəyyən edilir.**

*Bütün bunlar ibtidai istintaqın gördüyü işlərdir.*

*Sonra məhkəmə istintaqı başlayır və yenidən şahidlər dindirilərək, üzləşdirilərək təqsirin mövcudluğu, dərəcəsi qiymətləndirilir.*

**"Dünya hakimi" funksiyasını öz üzərinə götürən ABŞ isə belə etmir.**

*Onun sözü, mövqeyi hadisələri də, şahidi də, faktları və sübutları da əvəz edir.*

*Kimi istəsə birbaşa "təqsirkar" elan edərək öz "hökmü"nü verir.*

Məşhur Azərbaycan atalar misalında deyildiyi kimi: "Özü doğub, göbəyini də özü kəsir".

❖ ❖ ❖

"Özü-özünə məktub"da ABŞ Azərbaycanı "etnik təmizləmə"də ittiham edərək könüllü şəkildə Qarabağdan Ermənistana getmiş erməni mənşəli və Ermənistan pasportlu hayların hüquqlarını müdafiə edir.

*Əvvəla,* Quantanamosu olan, təqsiri sübuta yetirilməmiş insanları müddətsiz həbsdə saxlayan dövlətin özünü "hüquq müdafiəçisi" kimi təqdim etməsi gülünc görünür.

*İkincisi,* otuz il ev-eşiyindən zorla qovularaq qaçqın şəhərciyində yaşayan azərbaycanlılar, onların hüquqları barədə bir kəlmə danışmayan konqresmenlər nə vaxtdan belə humanist olublar?

*Üçüncüsü,* bəs qərbi azərbaycanlılar, onların geriyə, doğma yurdlarına qaytarılması haqda niyə susurlar?

**Belədə ABŞ-dəki şərəfinə heykəl ucaldılmış "Ədalət ilahəsi"nin tərəzisi əyilmirmi?!**

Yaxud bu gün Azərbaycandakı məlum ünvanda "çay içən" separatçı, terrorçu, terroru maliyyələşdirənlərin, müharibə bölgəsindən yüz kilometrlərlə uzaqda yerləşən Azərbaycan şəhərlərinə ballistik raket atılması əmrini verənlərin, qadağan olunmuş kassetli, fosforlu bombalarla dinc əhalini qırdıranların azadlığa buraxılması nə qədər doğru və ədalətli olar?

**Axı onlar qanun əsasında, faktlar və sübutlarla, öz ifadələri ilə məhkəmə qaydasında mühakimə ediləcəklər!**

*Yoxsa ABŞ erməni adı gələndə məhkəmə və hüquq tanımır, "ermənisənsə mələksən" fikrini əsas tutur?*

❖ ❖ ❖

Qəribədir ki, ABŞ konqresmenləri narahatlıq və həyəcan doğuran, humanizm prinsiplərinə tamamilə zidd sayılan məsələlər barədə bir kəlmə belə demir, ağızlarına su alaraq susurlar.

MƏSƏLƏN:

* Ermənistan hələ də həqiqi mina xəritələrini vermədiyindən günahsız insanlar, mülki vətəndaşlar vaxtaşırı minaya düşür, həlak və ya əlil olurlar;

* Hələ də Ermənistan kütləvi məzarlıqların yerini göstərmir, əsir və girovlara qarşı törətdikləri vəhşilikləri ört-basdır edir.

* Otuzillik işğal dövründə Azərbaycan xalqına məxsus mədəni irsin, tarixi abidələrin, məscidlərin, qəbiristanlıqların dağıdılaraq təhqir olunmasını, yaşayış məntəqələrinin yer üzündən silinməsini "görməyən" konqresmenlərin nə əcəb gözləri belə geniş açılıb?

*Bu bədnam əməllərin müəllifləri biz olsaydıq, onda görün nə oyunlar çıxarardılar!*

Yaxşı deyiblər ki, ayıblı ayıbını bilsə, başına palaz bürüyər!7

**Xeyli əvvəl Azərbaycan "çevrilişlər müəllifi" "Soros fondu"nun yerli nümayəndəliyini ölkədən çıxartdı.**

Çox düzgün etdi!

*Əgər "Soros" Ermənistanda "küçə inqilabı" yolu ilə "Qarabağ Ermənistandır, nöqtə" söyləyən birini hakimiyyətə gətirirsə, onun Azərbaycanda nə işi var?!*

**USAID Ermənistana böyük məbləğdə vəsait - 120 milyon dollar ayıraraq, sonradan yardımı daha da artırmaqla onu 250 milyon dollara çatdırırsa, ona Azərbaycanda yer olmamalıdır.**

Milli Məclisin deputatları öz tələblərində tamamilə haqlıdırlar: USAID (ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi) dərhal ölkəmizdən çıxarılmalıdır!

Biz dostluğa da, əməkdaşlığa da hazırıq!

Ədalətsiz addımların, təhdid və təzyiq cəhdlərinin qarşısını alaraq müstəqil, dövləti maraqları ehtiva edən siyasət yürütməyə də qadirik!

**Bizimlə zor deyil, əməkdaşlıq, hüquq dilində danışmaq lazımdır!**

Ermənistanı revanşa hazırlayan ABŞ, əslində, sanksiyalar tətbiqi ilə Azərbaycanı gücdən salmaq niyyəti güdür.

Azərbaycan bütün variantlara hazırdır!

*Heç bir sanksiya onun inkişafını ləngidə, hərbi qüdrətini zəiflədə bilməz!*

*Çünki Azərbaycan daim öz gücünə, öz imkanlarına və dostlarına güvənir.*

**Heç kəsdən də asılı deyil!**

Daim yeni ağa axtarışında olan forpost ölkə Ermənistandır!

Onu isə nə qədər müdafiə edib gücləndirsələr də, məsələ sonda hərb meydanında həllini tapacaqdır!

*II Qarabağ müharibəsi və lokal antiterror əməliyyatı isə yeni müharibənin başlayacağı təqdirdə nəticəni irəlicədən əyan edir!*

"Dəmir yumruq" hazır vəziyyətdədir!

❖ ❖ ❖

"Yüz mamaça gəlsə də, güc doğana düşür" - Azərbaycan atalar sözüdür.

Kimlər Ermənistanı nə qədər və nələrlə silahlandırsalar da, döyüş meydanında biz üz-üzə gələcəyik!

44 gündə və 23 saatda başlarına gətirdiklərimizi unutmasınlar!

Azərbaycan əsgər və zabitinin yaratdığı xof və vahimə on iki min fərari erməni əsgərinin canından hələ çıxmayıb və heç zaman da çıxmaz!

**Bəxtiyar SADIQOV**

## *Ekspert:* "Erməni xalqının rifahı yalnız Azərbaycanla imzalanacaq sülh sazişindən asılıdır"

**"Son vaxtlar beynəlxalq siyasi iradə mərkəzlərinin əsas diqqətini özünə daha çox cəlb edən Cənubi Qafqazla bağlı dünya nəhənglərinin strateji hədəfləri getdikcə daha aydın hal almağa başlayır. Buradakı əsas reallıq ABŞ və Qərbin Rusiyanı regiondan uzaqlaşdırmaq hədəfidir və onlar bunu Ermənistan üzərindən həyata keçirməyə çalışırlar. Lakin unutmamalıyıq ki, Ermənistan bu regionun "qapı"sı deyil və onlar məhz ermənilər üzərindən digər bölgə ölkələrinə təzyiq göstərmək istəyirlər".**



Bu fikirləri AZƏRTAC-a türkiyəli siyasi ekspert Bilgehan Öztürk ifadə edib.

ABŞ ilə Azərbaycan arasında son vaxtlar meydana gələn ziddiyyətlərə toxunan siyasi şərhçi bunun əsas səbəblərindən birinin də məhz qeyd edilən bu məqam olduğunu bildirib: "İndi Ağ Ev Cənubi Qafqazda Ermənistanın maraqlarının təminatçısı rolunda çıxış edir. Bununla yanaşı, Azərbaycana qarşı təzyiq cəhdlərinin artması da regionda vəziyyətin gərginləşməsinə yol açır. Vəziyyətin normallaşması istiqamətində addımlar atıla bilər və bu, təqdirəlayiq hal kimi hesab edilər. Lakin burada belə bir sual meydana çıxır: Xüsusilə son vaxtlar daha da artan erməniпərəst çıxışlardan sonra rəsmi ABŞ-dən Azərbaycana qarşı səmimi münasibət gözləmək nə qədər doğrudur? Fikrimcə, Bayden administrasiyası dövründə bunun ola biləcəyinə inanmaq çox çətindir. Bu şübhələrə əsas verən kifayət qədər ciddi faktlar var. Misal üçün, 44 günlük Vətən müharibəsində ABŞ-nin Ankaradan Qarabağ məsələsində Azərbaycana dəstəyin dayandırılması kimi absurd tələbi bunun nümunələrindəndir. Təbii ki, rəsmi Ankara Amerikanın bu tələbinə məhəl qoymadı. Lakin bu cəhdlə yanaşı, ABŞ-nin Ermənistana dəstəyi belə Azərbaycanın ərazilərini işğaldan azad etməsinə əngəl törədə bilmədi".

Ekspert deyib ki, rəsmi İrəvan ABŞ və Qərbin ona verdiyi müəmmalı vədlərə ümid bəsləmək əvəzinə Azərbaycan ilə bir an əvvəl sülh müqaviləsinin imzalanmasına çalışmalıdır: "Bu danılmaz faktdır ki, regionda baş verən gərginliklərin mərkəzində məhz Ermənistanın özü və onun himayədarları dayanır. Bütün bunların fonunda görünür ki, Ermənistan başda Fransa olmaqla Qərb ölkələri, eləcə də ABŞ-nin dəstəyi ilə Cənubi Qafqazda yenidən xaos yaratmaq niyyətindədir. Onların əsas niyyəti Türkiyə-Rusiya münasibətlərinə xələl yetirmək və Azərbaycanın Qarabağda əldə etdiyi tarixi hərbi və siyasi Zəfərə kölgə salmaqdır. Buradan göründüyü kimi, bəzi Qərb dairələrinin bu təhriki ilə Ermənistanın atdığı hazırkı addımlar həm Azərbaycana, həm Rusiyaya, həm də Türkiyəyə qarşıdır. Onların digər hədəfi isə İrandır. Yəni Qərb Ermənistana müşahidəçi adı altında sürətli şəkildə hərbçilər yerləşdirməklə İranı da Şimaldan mühasirəyə almaq istəyir".

Bu hadisələrin heç birinin Ermənistana yaxşı vədlər vermədiyini vurğulayan ekspert bildirib ki, sərhədlərinin 80 faizi ilə - Türkiyə və Azərbaycana bağlı Ermənistan hazırda odla oynayır. Burada Şuşa Bəyannaməsindən irəli gələn öhdəlikləri də unutmaq olmaz. İndi Paşinyan hakimiyyətinin təmsilçiləri sülh sazişinin imzalanmasından danışsalar da, təəssüf ki, bunun reallaşması istiqamətində ciddi addım atmağa tələsmirlər. Lakin onlar unutmamalıdırlar ki, Ermənistan və buna bağlı olaraq erməni xalqının rifahı yalnız Azərbaycanla imzalanacaq sülh sazişindən asılıdır.

## MEDİA: "EekadFacts" internet resursunda yayılan məlumatlar reallığı əks etdirməyən təxəyyül məhsuludur

**"EekadFacts" adlı internet resursuna aid sosial şəbəkə hesablarında guya Azərbaycandan hava yolu ilə digər ölkəyə silah daşınması barədə həqiqətə uyğun olmayan saxta məlumat yayılıb. Bu, ölkəmizə qarşı qlobal dezinformasiya kampaniyasının növbəti nümunəsi olmaqla, heç bir reallığı əks etdirməyən təxəyyül məhsulu olan əsassız məlumatdır.**




AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) açıqlamasında bildirilib.

"Qeyd olunan spekulyativ məlumatların istehsalı və yayılmasını nüfuzlu qlobal tədbirlərə evsahibliyi edən Azərbaycanın beynəlxalq imicinə zərər vurmağa, ölkəmiz barədə ictimai fikri çaşdırmağa yönəlmiş daha bir uğursuz manipuliyasiya cəhdi kimi qiymətləndiririk.

Vətəndaşlarımızı, beynəlxalq ictimaiyyəti bu tip aldadıcı məlumatların təsirinə düşməməyə və yalnız rəsmi mənbələrdən əldə olunan informasiyaya istinad etməyə çağırırıq", - açıqlamada vurğulanıb.

# Nazir Vilayət Eyvazov Gəncədə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 9-da və 10-da Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Gəncə şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlarından qəbula gələn 323 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.





Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncədə yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Polis əməkdaşlarının və hərbi qulluqçuların xüsusi-taktiki təlimlərini izləyən nazir onların peşə və döyüş hazırlığını yüksək qiymətləndirib, tapşırıq və tövsiyələrini verib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 41 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 248 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## Baş prokurorun müavini: "Bu gün 50 vakant yer üzrə 300-dən çox namizəd qüvvəsini sınayır"

**"İndiyədək işə qəbulla bağlı keçirilmiş 25 müsabiqədə uğur qazanmış 1203 hüquqşünas prokurorluq işçilərinin 89,1 faizini təşkil edir".**



AZƏRTAC xəbər verir ki, bunu baş prokurorun müavini Heydər Məmmədov jurnalistlərə açıqlamasında deyib.

H.Məmmədov bildirib ki, hazırda müsahibənin I mərhələsi, yəni test imtahanı keçirilir: "Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə həyata keçirilən bu test mərhələsində prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan 300-dən çox namizəd iştirak edir".

O qeyd edib ki, Azərbaycan Respublikasının prokurorluq orqanlarında işə qəbulla bağlı imtahanlar ilk dəfə Ulu Öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə əsasən keçirilib: "2002-ci ildən etibarən 25 müsabiqə təşkil edilib. Bu müsabiqələrdə uğur qazanan 1203 hüquqşünas prokurorluq orqanlarında işə qəbul olunub. Hazırda onlar prokurorluq əməkdaşlarının 89,1 faizini təşkil edir".

"Sevindirici haldır ki, hazırda müsabiqə yolu ilə qulluğa qəbul olunmuş işçilərin bir çoxu yuxarı təsnifat vəzifələri üzrə irəli çəkilib, o cümlədən 169 nəfər hazırda müstəqil rayon və şəhər prokuroru kimi və müstəqil struktur qurumların rəhbəri kimi fəaliyyət göstərir və onlardan bir neçəsi xüsusi ali rütbə alıb", - deyə Heydər Məmmədov əlavə edib.

## Azərbaycanla BƏƏ arasında birgə layihələr müzakirə olunub



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin təmiz ətraf mühit və "yaşıl enerji" ölkəsinə çevrilməsinin qarşıya hədəf kimi qoyulduğu vurğulanıb, enerjidən səmərəli istifadə olunması, yeni dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr və onların icra vəziyyəti barədə məlumat verilib.

Eyni zamanda SOCAR-ın BƏƏ-nin ADNOC və "Masdar" şirkətləri ilə birgə layihələri, onların icrası istiqamətində perspektivdə duran məsələlər müzakirə edilib.

Tərəflər həmçinin Azərbaycanla BƏƏ-nin iqtisadi sahədə birgə fəaliyyətinin perspektivləri, energetika sahəsində fəal əməkdaşlığın təşviqi və COP29 çərçivəsində ölkəmizlə tərəfdaşlıq barədə müzakirələr aparıblar.

# Laçında ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib

**Laçın şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, cari ilin beşinci iclasında işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının, azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak ediblər.

Ekoloji məsələlər üzrə işçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, azad olunmuş ərazilərdə 142 mineral xammal yatağında monitorinq-təftiş işləri aparılıb, işğal dövründə istismar edilmiş həcmlər müəyyənləşdirilib. Həmçinin yeraltı su yataqlarının istismar ehtiyatlarının yenidən qiymətləndirilməsi layihələri üzrə 170-dən artıq məntəqədə yoxlama-təftiş işləri yerinə yetirilib.

Zəngilan, Füzuli, Cəbrayıl, Qubadlı və Kəlbəcər rayonları ərazisində məsafədən zondlama üsulu ilə meşə fondu sahələrində nümunə sahələri müəyyənləşdirilib, seçmə üsulu ilə bu sahələrə baxış keçirilib. Həmin meşələrin taksasiya elementləri öyrənilməklə plan-kartoqrafik materialları tərtib olunub. Hazırda Şuşa və Xocalı rayonları üzrə meşə fondu sahələrinin inventarlaşdırılması ilə bağlı müvafiq işlər aparılır.

Vüqar Kərimov deyib ki, "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin, "Ağıllı Tinglik Təsərrüfatı"nın və "Dostluq meşəsi"nin yaradılması ilə bağlı Türkiyə Respublikası ilə birlikdə icra olunan layihələr çərçivəsində ərazinin hasarlanması, tinglik təsərrüfatı üçün istinad divarlarının hazırlanması, eləcə də içməli su, kanalizasiya, yağış suyu, drenaj və suvarma suyu üçün boruların çəkilişi işləri yerinə yetirilib. Həmçinin 16,4 hektar "Dostluq meşəsi", eləcə də həmin əraziyə bitişik olan 57 hektar torpaq sahəsində terras üsulu ilə yeni yaşıllıq sahəsi salınıb.

"Ərazilərdə biomüxtəlifliyin artırılması və ekosistemin bərpası tədbirləri çərçivəsində Cəbrayıl rayonu ərazisinə 33 baş ceyran, Laçın rayonu ərazisinə 5 şahin quşu, 4 baş Şərqi Qafqaz turu və 10 kəklik quşu, eləcə də Kəlbəcər rayonuna bezoar keçilərinin reintroduksiyası məqsədilə 3 baş keçi Göygöl Milli Parkının 6-cı kvartalından Murovdağ istiqamətinə buraxılıb", - deyə o vurğulayıb.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov Laçın şəhərinin bərpasının ikinci mərhələsi üzrə işlərin davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, Laçında yaşayış olan yerlərdə bərk məişət tullantılarının idarə edilməsi prioritet məsələlərdən biridir. Bu məqsədlə tullantılar poliqonu üçün yer müəyyənləşdirilib.

Məsim Məmmədov əlvan və qiymətli daşların axtarışını və geoloji qiymətləndirilməsini təklif edib.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən ekoloji tələblərin icra vəziyyəti, filiz, qeyri-filiz, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti və istifadə perspektivləri, torpaqların elektron kadastr uçotu işlərinin nəticələri, Laçın hava limanının inşası zamanı tikinti altına düşən meşə əraziləri ilə əvəzlənmiş sahədə yeni yaşıllıq massivinin salınması işləri barədə iclas iştirakçılarına məlumat verilib. Həmçinin iclasda işğaldan azad edilmiş ərazilərdə bərk məişət tullantıları ilə əlaqədar vəziyyətin yaxşılaşdırılması üçün müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası müzakirə olunub.

## ZƏFƏR gündəliyi
## 11 oktyabr 2020-ci il

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Həqiqət və ədalət bizim tərəfimizdədir!"

***Oktyabrın 11-də Ermənistan bir daha dünyaya əsl vəhşi xislətini nümayiş etdirib. Müharibə gedən ərazilərdən xeyli kənarda yerləşən şəhər və rayonlarımıza raketlər atılıb. Gəncə şəhərinə atılan raket dinc əhalinin ölümünə səbəb olub. Buna cavab olaraq Azərbaycan Ordusu düşmənin bir sıra mühüm hərbi obyektlərini, zirehli texnikasını, canlı qüvvəsini məhv edib.***



### Gəncəyə raket atılıb - 9 nəfər həlak olub, 35 nəfər yaralanıb

Oktyabrın 11-də Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutub. Gecə saat 02:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə ermənilərin atdığı raket nəticəsində yaşayış binası tamamilə dağılıb, bina sakinləri dağıntılar altında qalıblar.

4-ü qadın olmaqla 9 nəfər həlak olub, 35 nəfər yaralanıb. Bundan başqa, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Yaralı şəxslərdən biri müalicə olunduğu xəstəxanada vəfat edib.

### Mehriban ƏLİYEVA: "Ermənistan nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir"



Birinci vitse-prezident Mehriban xanım Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edərək dünya birliyini baş verən bu hadisəyə laqeyd qalmamağa çağırıb.

Mehriban xanım Əliyeva paylaşımda qeyd edib ki, beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Birinci vitse-prezident həmçinin xalqa müraciət edib: "Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Düşmənin 5 tankı, 6 topu, 16 avtomobili, 8 atəşli reaktiv sistemi məhv edilib

Bütün cəbhəboyu vəziyyət gərgin olaraq qalıb. Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstəriblər. Gecə ərzində düşmənə atəş zərbəsi vurulmaqla onun bütün hücum cəhdlərinin qarşısı alınıb.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilərək sıradan çıxarılıb.

### Döyüş mövqelərini özbaşına tərk edən erməni hərbçilərinin sayı kütləvi hal alıb

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun işğal etdiyi ərazilərdəki əsas qüvvələri və ehtiyatlarına ciddi ziyan vurulub, silah-sursat və yanacaq tükənmək üzrədir. Ermənistan hərbi komandanlığı psixoloji gərginlik, şəxsi heyət isə qorxu içindədir. Erməni əsgərlərin komandirlərinə inamı itir.

Ermənilərin 1-ci, 5-ci və 9-cu motoatıcı alaylarının döyüş mövqelərini özbaşına tərk edən hərbi qulluqçularının sayı kütləvi hal alıb. Hərbi polis bu cür əsgərlərin məcburən səngərlərə geri qaytarılmasında aciz qalıb.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünə malikdirlər.

### Mingəçevirə zərbə vurmaq istəyən PUA məhv edilib

Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Ermənistan atəşkəs razılaşmasını pozub

Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayıb. Sənəddə qeyd edilib ki, humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-də, müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*



# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycana təzyiqlərin bir səbəbi də COP29-la bağlıdır

### Bəzi dairələr bu konfransın ölkəmizdə keçirilməsini həzm edə bilmirlər



**"ABŞ Dövlət Departamentinin Azərbaycana qarşı qərəzli münasibətinin artmasının səbəbi var. Azərbaycan dövlətinin Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında bütün təzyiqlərə baxmayaraq, işğal altındakı torpaqlarımızı azad etməsi bu çevrələrin xoşuna gəlməyib".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Sədrinin müavini Musa Qasımlı deyib. Deputat bildirib ki, onlar Azərbaycanın qazandığı qələbə ilə təkcə öz torpaqlarını azad etməklə işğala son qoymadığını, eyni zamanda, dünya xalqlarına örnək verdiyini düşünürlər. Azərbaycan göstərdi ki, millət gücünə güvənərək istədiyinə nail ola bilər. "Əslində, Amerika Azərbaycanı təbrik etməli idi, çünki Azərbaycanın qazandığı qələbə ABŞ-nin də imzasının olduğu BMT Nizamnaməsinin tələblərinin yerinə yetirilməsi, haqq və ədalətin bərqərar edilməsidir. Azərbaycan öz torpaqlarını azad etdi, müharibə xarakterinə görə ədalətli və azadlıq müharibəsi idi. Rəsmi Vaşinqton ədaləti əgər prinsip kimi elan edirsə, Azərbaycanın apardığı müharibə də ədalətli idi. Elə isə Amerikanın ədalət prinsipi harada qaldı?", - deyə o əlavə edib.

M.Qasımlı qeyd edib ki, bir neçə konqresmenin Dövlət katibinə ünvanladığı məktub bütövlükdə haqq və ədalətin, demokratiyanın ayaqlar altına atılmasıdır. Bakıda həbsxanada olan terrorçu və separatçıların Nyu Yorkda dünya ticarət mərkəzini partladanlardan, Pentaqonu vuranlardan heç bir fərqi yoxdur. Axı ,yaxşı və pis terrorçu olmamalıdır. Belə yanaşma terroru himayə etməkdir. Hər hansı xalqın öz ərazisini işğaldan azad etməsi düzgün qiymətləndirilməlidir.

Parlamentin Sədr müavini vurğulayıb ki, amerikalı senator və konqresmenlərin Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə qarşı çıxması Amerika xalqının İstiqlaliyyət müharibəsində qazandığı qələbənin əleyhinə çıxmaq deməkdir. Çünki hər ikisində torpaqlar azad edilib: "Belə yanaşmalar heç şübhəsiz, həmin senator və konqresmenlərin Amerika xalqını aldadaraq çirkli yollarla pullar qazanmış erməni milyarderlərin cibinə göz dikmələri ilə bağlıdır. Belə şəxslər üçün beynəlxalq hüquq, haqq və ədalət sonuncu yerdədir.

Azərbaycana təzyiqlərin artmasının digər səbəbi COP29-la bağlıdır. Ölkələrin çoxu bu konfransın ölkəmizdə keçirilməsinə səs verdi, amma bəziləri heç cür həzm edə bilmirlər ki, bu gün ətraf mühitin mühafizəsi kimi vacib məsələlərin həllində Azərbaycan mərkəzi rol oynayır. Azərbaycana qarşı bu hücumlar onun müstəqil xarici siyasət yürütməsi, heç bir dövlətin əlində alət olmaması ilə bağlıdır. Ölkəmiz heç vaxt digər dövlətə qarşı başqasının əlində vasitə olmayıb, həmişə dövlət və milli maraqlarının yanında olub".

Deputat bildirib ki, bu vəziyyəti həmin ölkələrin bəlli dairələri qəbul edə bilmirlər. Onlar heç cür barışa bilmirlər ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan yeni müstəmləkəçilik formalarından əziyyət çəkən xalqların ümid yeridir. COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada artan imicinin, yerinin möhkəmlənməsi ilə nəticələnəcək. Amma onlar anlamalıdırlar ki, Azərbaycanla təzyiq dili ilə danışmaq olmaz. "Azərbaycan yalnız bərabərhüquqlu münasibətləri qəbul edir. Sözü və işi bir olan, əməkdaşlığa və körpülər qurmağa hazır olan Azərbaycanla normal münasibətlər ABŞ-nin faydasınadır. Əgər Amerika Cənubi Qafqazda öz maraqlarını qorumaq istəyirsə, Azərbaycanın yanında olmalıdır", - deyə M.Qasımlı deyib.

Sədr müavini yekunda vurğulayıb ki, Azərbaycan heç bir dövlətlə münasibətlərini korlamaq istəmir və bunun üçün bəhanə vermir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## ABŞ-nin saxta əsaslarla ölkəmizə qarşı iradlar irəli sürməyə başlaması qəbuledilməzdir

**"Hazırda bir sıra qüvvələr ölkəmizə qarşı yeni təzyiq kampaniyasına başlayıblar. Bütün bunlar Azərbaycanın COP29-a evsahibliyi etməsini hədəf alıb. Hamımız xatırlayırıq ki, oxşar təzyiq kampaniyaları vaxtilə "Avrovizi-ya", Avropa Oyunları və digər bu kimi beynəlxalq tədbirlərə ölkəmiz evsahibliyi edərkən də həyata keçirilirdi.**



Lakin hazırkı qarayaxma kampaniyası əvvəlki illərdə olanlarla müqayisədə daha intensivdir. Bu da onunla bağlıdır ki, bu kampaniyanı aparan qüvvələr ölkəmizin Ermənistanın qətliam və kütləvi şəkildə dağıntı törətmiş işğalçı ordusunu məğlub etməsini, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini həzm edə bilmirlər. Amerika Birləşmiş Ştatlarının (ABŞ) bu qüvvələrin sırasında yer alması təəssüf hissi doğurur".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Qaya Məmmədov söyləyib.

"Azərbaycan hökuməti və parlamenti ABŞ ilə ikitərəfli münasibətlərə hər zaman böyük əhəmiyyət verib və konstruktiv davranıb.

İkitərəfli münasibətlərdə indiyədək əldə olunmuş müsbət inkişafların əksəriyyəti məhz Azərbaycan tərəfinin səyləri sayəsində ərsəyə gəlib.

ABŞ müstəqilliyimizin ilk günlərindən başlayaraq Konqres vasitəsilə ölkəmizə qarşı davamlı şəkildə zərərli addımlar atıb. Azərbaycanın öz suverenliyini bərpa etməsi ilə bu kampaniya daha da şiddətlənib. Konqresdə son bir il ərzində Azərbaycan əleyhinə 16 qanunvericilik təşəbbüsü irəli sürülüb. Onların hamısı beynəlxalq hüquqa və BMT Nizamnaməsinə ziddir.

ABŞ-də bir qrup senator və konqresmenin ötən həftə bu ölkənin Dövlət katibinə göndərdiyi müraciət Azərbaycan tərəfinin səbrini daşıran son damla oldu. Bu məsələyə ölkə rəhbərliyi səviyyəsində münasibət bildirilib və biz, Milli Məclisin bir qrup deputatı ABŞ ilə münasibətlərin yenidən nəzərdən keçirilməsi təklifi ilə Xarici İşlər Nazirliyinə müraciət etmişik.

Prezident İlham Əliyevin Cəbrayılda etdiyi çıxışında vurğuladığı bir məsələnin - Konqresdən Dövlət katibi Entoni Blinkenə göndərilmiş müraciətin əslində Dövlət Departamentində yazılması məsələsinin üzərində xüsusilə dayanmaq istərdim. Hamı bilməlidir ki, ABŞ-nin "Azadlığı dəstəkləmə aktı" adlı qanununa 1992-ci ildə edilmiş düzəlişdən (907-ci maddə) başlamış Dövlət katibinə ötən həftə ünvanlanmış müraciətə qədər, Konqresdə irəli sürülmüş anti-Azərbaycan xarakterli bütün təşəbbüslərin müəllifi elə ABŞ hökumətinin özü olub. "Erməni lobbisinin", "Konqresin və hökumətin tamamilə fərqli mövqelərdə olması" kimi bəhanələrə daha heç kim inanmır. Bu, əlbəttə çoxdan məlum olan məsələ idi. Lakin biz bunu bildiyimizi nəzakət xatirinə dilə gətirmirdik. Artıq Azərbaycan ictimaiyyəti bütün bunları bilir", - deyə deputat bildirib.

O əlavə edib ki, ABŞ hökuməti ikitərəfli əməkdaşlığa böyük zərbə vurub: "Bu, ABŞ-nin 2001-ci ildə Əfqanıstanda əməliyyat başlayanda Azərbaycana ehtiyacı yarandığı üçün 907-ci maddənin qüvvəsini dayandırması və Əfqanıstanda əməliyyat bitən kimi onu yenidən aktivləşdirməsidir. Qeyd edək ki, ABŞ Prezidenti səlahiyyəti olduğu halda, ötən il 907-ci düzəliş çərçivəsində ölkəmizə qarşı sanksiyaları dayandırmaqdan imtina edib.

Bir milyona yaxın azərbaycanlının Ermənistan tərəfindən zorla qovulmasına, qətliama məruz qalmasına, onların qayıdış hüququnun pozulmasına onilliklər ərzində biganə qalmış ABŞ-nin saxta əsaslarla humanitar hüquq və insan hüquqları arqumenti ilə ölkəmizə qarşı iradlar irəli sürməyə başlaması tamamilə qəbuledilməzdir.

Bütün bunlar qarşılıqlı etimadı əsaslı şəkildə sarsıdıb və ikitərəfli əməkdaşlıqda onilliklər ərzində əldə edilmiş bir çox nailiyyətin üstündən xətt çəkib.

ABŞ tərəfinin müstəqilliyimizin ilk günlərindən başlayaraq bu günədək fasiləsiz şəkildə davam edən təzyiqləri təkcə ölkəmizin rəhbərliyinə və siyasi sisteminə qarşı deyil, bütövlükdə Azərbaycan xalqına, onun siyasi müstəqilliyinə və suverenliyinə qarşı yönəlib.

Bütün bu təzyiq və qarayaxma kampaniyaları əbəsdir. Onların ikitərəfli münasibətlərə zərər vurmaqdan başqa heç bir təsiri ola bilməz. İkitərəfli münasibətləri qoruyub saxlamaq yalnız bir tərəfin səyləri ilə mümkün deyil. Biz ABŞ-dən olan tərəfdaşlarımıza çağırış edirik ki, qərəzli və zərərli yanaşmalardan əl çəksinlər və iki ölkənin ortaq maraqları naminə dialoq və əməkdaşlıq yolunu seçsinlər".

## Antiazərbaycançı qüvvələr "fəallaşıb"

### COP29 ərəfəsində Azərbaycanın imicinə zərbə vurmağa çalışırlar

**"COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq müstəvidə yüksək nüfuzunun göstəricisidir. Hazırda Azərbaycan bu müstəvidə fəal siyasət aparır. Həm ölkəmizdə, həm də beynəlxalq təşkilatlarda COP29 müstəvisində müxtəlif tədbirlər keçirilir, bir sıra sazişlər imzalanır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, bütün bunlar Azərbaycanın qlobal iqlim dəyişiklikləri ilə mübarizədə nə qədər fəal olduğunu göstərir. Amma təəssüf ki, Qərbdə müəyyən dairələr bu mühüm beynəlxalq tədbir ərəfəsində ölkəmizə qarşı qərəzli kampaniyalar təşkil edirlər.

Deputat qeyd edib ki, ABŞ Konqresinin bir qrup üzvünün oktyabrın 3-də Dövlət katibi Entoni Blinkenə müraciəti də obyektivlikdən tamamilə uzaqdır. ABŞ Cənubi Qafqazda sülhün təmin olunmasında maraqlı olduğunu dəfələrlə bəyan edib, sentyabrın sonlarında məhz Birləşmiş Ştatların təşəbbüsü ilə Nyu Yorkda Dövlət katibi Entoni Blinken, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında üçtərəfli görüş baş tutub. "Bu görüşdən bir neçə gün sonra isə konqresmenlər Blinkenə məlum müraciəti ünvanladılar. Bu, çox təzadlı mövqedir və rəsmi Vaşinqtonun sülh və vasitəçilik təşəbbüsləri ilə üst-üstə düşmür", - deyə o əlavə edib.

S.Fətəliyevanın sözlərinə görə, Qərbdə müəyyən dairələr Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini həzm edə bilmirlər: "Çünki bəzi xarici qüvvələr Ermənistanın işğalçılıq siyasətindən Cənubi Qafqazda öz maraqları üçün istifadə etməyə və Azərbaycana qarşı təzyiq göstərməyə çalışıblar. Otuzillik işğal dövründə baş verənlər də bunu təsdiqləyir. Ona görə də COP29 ərəfəsində Azərbaycanın beynəlxalq imicinə zərbə vurmağa cəhd göstərirlər. Azərbaycanda mötəbər beynəlxalq tədbirlər ərəfəsində həmin xarici qüvvələrin həmişə "fəallaşdığının" şahidi olmuşuq. Əgər onlar həqiqətən də insan haqlarının müdafiəçiləridirsə, nə üçün bir milyondan artıq azərbaycanlının Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan ərazilərindən etnik təmizləməyə məruz qalmasına, həmin ərazilərin Ermənistan tərəfindən viran qoyulmasına və minalanmasına etiraz səslərini ucaltmadılar? Səbəb aydındır, çünki həmin qüvvələr erməni diasporunun maliyyəsi ilə ermənilərə lobbiçilik edirlər. Digər tərəfdən bütün bunlar Qərbdə islamofob və azərbaycanofob mövqeyin təzahürləridir".

Deputat vurğulayıb ki, kimin nə deməsindən asılı olmayaraq, ölkəmiz haqq yolundadır və mövqeyimiz beynəlxalq hüquqa əsaslanır. COP29-a gəlincə, hansısa dövlət və ya təşkilat bu tədbirin Azərbaycanda keçirilməsinə əngəl ola bilməz. Bu məsələdə dövlətimizə beynəlxalq səviyyədə dəstək çox güclüdür.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İrəvanın sülh məkri

### Ermənistanın sülh sazişini yarımçıq imzalamaq istəyi gələcəkdə Azərbaycana qarşı ərazi iddiası irəli sürə bilmək niyyətindən qaynaqlanır

**Torpaqlarımızın üzərində milli suverenliyimizin tam təmin edilməsindən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində daha əlverişli tarixi şərait formalaşıb. Məlumdur ki, sülhün əldə edilməsi ilə bağlı çağırışlar və təşəbbüslər hər zaman məhz Azərbaycan tərəfindən olunub.**



İrəvandan fərqli olaraq, Bakı müxtəlif platformalarda aparılmış sülh danışıqları prosesinin müsbət nəticə verməsi üçün bütün addımları atıb.

Beləliklə, hazırda Azərbaycanla Ermənistan arasında sülhə nail olunması və münasibətlərin normallaşdırılması üçün zəmin yaranıb. Amma görünən odur ki, Ermənistan tərəfi xəstə erməni təfəkküründən əl çəkə və reallığı düzgün dəyərləndirə bilmir. Ermənistanın sülh sazişi ilə bağlı layihədə öz əksini tapması zəruri olan müddəaları çıxarması da bunu təsdiq edir.

Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın müstəqillik bəyannaməsinə açıq şəkildə istinad edən bu ölkənin konstitusiyası olmaqla, çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır. Bunu etmək istəməyən Ermənistanın rəsmilərinin sülh sazişini imzalamağa hazır olduqlarını bəyan etmələri isə erməni məkrindən başqa bir şey deyil. İrəvanın sülh sazişinin layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanmasına etdiyi çağırışlar, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri heç bir halda qəbul edilə bilməz. Ermənistanın sülh sazişini yarımçıq şəkildə imzalamaq çağırışı gələcəkdə Azərbaycana qarşı yenidən ərazi iddiaları irəli sürə bilmək niyyətindən doğur.

Azərbaycanla Ermənistan arasında sərhəd komissiyalarının reqlamentinin Ermənistan konstitusiyasına uyğunluğu ilə bağlı bu ölkənin Konstitusiya Məhkəməsinin 26 sentyabr 2024-cü il tarixli qərarında müstəqillik bəyannaməsinə istinadın əks olunduğu preambula konstitusiyanın ayrılmaz hissəsi kimi vurğulanıb. Qərarda preambula və dolayısı ilə müstəqillik bəyannaməsi "erməni dövlətçiliyinin əsas prinsipləri" kimi səciyyələndirilib və onların dəyişilməz müddəalar olduğu qeyd edilib.

Bu da bir daha göstərir ki, Ermənistan Azərbaycan ərazilərinə qarşı iddialarından əl çəkməyib. Yarımçıq sülh sazişi isə Ermənistana öz məkri üçün lazımdır.

Eyni zamanda Ermənistan keçmiş münaqişənin qalığı olan Minsk qrupunun işinin bərpasına yönəlik məkrli əməllərindən əl çəkməli, onun hüquqi ləğvi ilə bağlı müraciət etməlidir. İrəvanın Minsk qrupu ilə bağlı hazırkı mövqeyi isə bir daha Azərbaycana qarşı məkrli niyyətin göstəricisidir.

Onu da qeyd edək ki, İrəvan rəsmiləri hansısa görüşlər və tədbirlər çərçivəsində çıxışlarında və ya açıqlamalarında xəstə erməni təfəkküründən irəli gələrək reallıqları təhrif edir və əsl həqiqətlərə kölgə salırlar. Bu isə sülh prosesini buxovlayır, ona əngəl yaradır. Ümumiyyətlə isə, Ermənistan rəsmilərinin davranışları bu ölkənin sülhdə maraqlı olmadığını nümayiş etdirir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Rəsmi Vaşinqton bölgədə gücə çevrilmək üçün Azərbaycana qarşı sanksiya təzyiqini yenidən işə salıb

**"Rəsmi Vaşinqton bölgədə gücə çevrilmək üçün Azərbaycana qarşı sanksiya təzyiqini yenidən işə salıb. ABŞ-nin Azərbaycana bu formada təzyiqi ilk dəfə deyil. Biz 1992-ci ildən bəri rəsmi Vaşinqtonun ölkəmizə qarşı münasibətində belə variantları dəfələrlə müşahidə etmişik".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında "İslahatçı Qadınlar və İnnovasiyalar" İctimai Birliyinin sədri Vüsalə Hüseynli deyib.

QHT sədri söyləyib ki, rəsmi Vaşinqton Azərbaycanla bağlı hər hansı bir planını reallaşdırmaq arzusunda olanda nədənsə yadına insan hüquqları ilə bağlı məsələlər düşür. Azərbaycan və Ermənistanın sülh müqaviləsinin razılaşdırılması ərəfəsində bu məsələnin yenidən gündəmə gətirilməsi təəccüb doğurmur. ABŞ rəsmiləri sözdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin bağlanmasını dəstəklədiklərini desələr də, əslində, bölgə ilə bağlı planlarının suya düşməsi onlar tərəfindən ciddi narahatlıqla izlənir. Ötən ay Ermənistanla Azərbaycan arasında çərçivə sənədinin imzalanmaması rəsmi Vaşinqtonun yadına növbəti dəfə insan hüquqları məsələsini saldı. ABŞ bu gün sanksiyalardan istifadə edərək bölgənin əsas dövləti olan Azərbaycana təzyiq vasitəsilə Qafqazda gücə çevrilməyə cəhd göstərir. Rəsmi Moskvanın diqqətinin Ukraynaya yönəlməsi bölgədə maraqları olan digər gücləri fəallaşdırıb ki, bunlardan bəlkə də birincisi ABŞ-dir.

"Təbii ki, Amerikanın yenidən sanksiyalara üz tutmasının pərdəarxası məqamları mövcuddur. Çünki 44 günlük Vətən müharibəsindən sonra rəsmi Bakı regionda siyasi konfiqurasiyanı dəyişdi. Bu dəyişiklik bölgədə marağı olan güclərin Cənubi Qafqazla bağlı bütün planlarını alt-üst etdi. O cümlədən rəsmi Vaşinqtonun da bölgəyə olan marağını nəzərə alsaq, onun bugünkü reaksiyası anlaşılandır", - deyə QHT sədri diqqətə çatdırıb.



# İQTİSADİYYAT

## Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 106 min şəxsə aylıq sosial ödəniş təyin olunub

### 24,1 min şəxsə isə birdəfəlik ödəmə təyinatı aparılıb

**44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək tədbirlərinin bir istiqaməti də onların sosial ödənişlərlə təminatıdır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeyd olunan dövrdə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,1 min şəxsə birdəfəlik ödəmə təyin olunub.

Postmüharibə dövründə həmin kateqoriyalara aid şəxslərə ödənilən müavinət və təqaüdlərin məbləği orta hesabla 2 dəfəyədək artırılıb.

## Azərbaycan törəmə maliyyə alətlərinin tətbiqi ilə fond bazarını inkişaf etdirir

**"Azərbaycanın fond bazarının inkişafının növbəti mərhələsi törəmə maliyyə alətlərinin tətbiqi və istifadəsinin genişləndirilməsi ilə bağlı olacaq". "Trend" xəbər verir ki, bu barədə Bakı Fond Birjasının (BFB) İdarə Heyətinin sədri Ruslan Xəlilov Bakıda "PASHA Holding" tərəfindən 4-cü dəfə təşkil edilən "INMerge" İnnovasiya Sammitində deyib.**



"Maliyyə biliklərinin artırılması da önəmli vəzifədir. İstiqraz emissiyası ilə bazara çıxan şirkətlər yalnız maliyyə göstəriciləri haqqında ictimaiyyətə məlumat verməli deyil, həm də inkişaf planlarını bölüşməlidirlər ki, bu da investorlar və cəmiyyət tərəfindən daha böyük etimad yaratmağa kömək edir. Qeyd etmək lazımdır ki, Azərbaycanda fond bazarının inkişafının növbəti mərhələsi törəmə maliyyə alətlərinin tətbiqi və istifadəsinin genişləndirilməsi ilə bağlı olacaq", - o qeyd edib.

Qeyd edək ki, "PASHA Holding"in təşkilatçılığı ilə həyata keçirilən bu sammitin məqsədi ölkədə innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək, onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.

## "Araz Vadisi..." vədinə əməl edir



### Sənaye parkına artıq 20 milyon manatdan çox investisiya qoyulub

**"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında fərmanı Prezident İlham Əliyev 2021-ci il oktyabrın 4-də imzalayıb. Elə həmin vaxtdan da fərmanla bağlı işlərin icrasına başlanıb. Bu il oktyabrın 3-də sözügedən sənədin imzalanmasının üç ili tamam olanda isə dövlət başçısı artıq fəaliyyət göstərən sənaye parkında yeni, növbəti müəssisələrin təməlini qoyub.**

Əlbəttə, məqsəd aydın olanda, yol düzgün seçiləndə işlər də rəvan gedir. Sənaye parkının hazırda 13 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 133,8 milyon manat sərmayənin yatırılması, 2 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 20 milyon manatdan artıq investisiya qoyulub, 40-dan çox daimi iş yeri yaradılıb.

İşğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edib. Bu iqtisadi rayonun cənubunda - Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması işğaldan azad edilmiş digər rayonların da bərpasında faydalı olacaq.

İşğaldan azad edilmiş torpaqlarımızın iqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları investorların marağına səbəb olur. Bu baxımdan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məqsədəuyğun hesab edilib. Üstəlik, ərazisi 200 hektar təşkil edən sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir.

Başqa sözlə, yerləşdiyi coğrafi mövqe sənaye parkının gələcək uğurlarına yol açır, ölkəmizin sürətli iqtisadi inkişafına töhfə verəcəyinə inam yaradır.

Məlumdur ki, ölkəmizdə sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafı Prezident İlham Əliyev tərəfindən prioritet elan edilib. Bu səbəbdən də yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması və fəaliyyətinin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Təqdirəlayiq haldır ki, bu qəbildən müəssisələr işğaldan azad edilmiş ərazilərimizdə də yaradılır.

Hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bir müəssisə fəaliyyət göstərir. Müəssisədə kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməli qoyulan yeni müəssisələr isə bunlardır:

Litvanın "Dominari" şirkətinin mebel klasteri. Bu şirkət "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Dominari" tərəfindən sənaye parkının 10 hektar ərazisində 5 mərhələdən ibarət mebel klasteri layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

İlkin mərhələdə döşək istehsalının əsas xammalı olan paralon materialının istehsalı zavodunun və mebel klasterinin müxtəlif mərhələlərini parça ilə təmin edəcək toxuculuq fabrikinin qurulması planlaşdırılır. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan müəssisədə ilkin mərhələdə 650 nəfər işlə təmin ediləcək. İşçilərin Cəbrayıl və ətraf rayonlardan cəlb olunması nəzərdə tutulur.

Qeyd edək ki, Litvanın "Dominari" şirkəti qısa müddət ərzində Baltikyanı ölkələrin və Şərqi Avropanın aparıcı mebel istehsalçılarından birinə çevrilib.

Bu ilin iyulunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçən və 2025-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulan "Karabakh Stone" MMC. Bu şirkət sənaye parkının 3,5 hektar ərazisində yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq və iş zamanı Türkiyə texnologiyasından istifadə edəcək. Məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

"Prestij-Kimya" MMC-nin zavodu. Yəni "Prestij-Kimya" sənaye parkının 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin olunacaq.

Türkiyənin, Çinin, Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 30 min ton məhsulun istehsal olunması nəzərdə tutulur. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, onların ixraca yönəldilməsi də planlaşdırılır.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılarkən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, logistika işinin təşkili, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli çalışmasına və inkişafına kömək edən ərazi kimi düşünülmüşdü. Görülən işlər də məhz hədəfə doğru gedir. Bu sənaye parkından ölkəmizin iqtisadiyyatı da, sərmayə yatıran sahibkarlar da, doğma yurda dönərək məşğulluğu uğurla həll edilən keçmiş məcburi köçkünlər də bəhrələnəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Orta dəhlizdə yeniliklərin tətbiqində ən təşəbbüskar ölkədir




**Məlum olduğu kimi, dünyada baş verən siyasi qarşıdurma və müharibələr səbəbindən Orta dəhlizə beynəlxalq miqyasda maraq artıb. Prezident İlham Əliyevin tapşırığı ilə bu imkandan daha çox faydalanmaq üçün ölkəmiz aktiv iş aparır. Hazırda bu marşrutla bağlı yeniliklərin demək olar ki, hamısının təşəbbüskarı Azərbaycandır.**

Ölkəmiz mövcud bürokratik əngəllərlə müşahidə olunan sənədləşdirmə prosedurlarının sadələşdirilməsi, həmçinin qeydiyyat və rəsmiləşdirilməsi prosesini əhəmiyyətli dərəcədə tezləşdirən elektron iş icazəsi (naryad) sisteminin istifadəyə verilməsində də aparıcı rol oynayır. Əvvəlki qaydadan fərqli olaraq yeni qaydaların tətbiqi məlumatların dəqiqliyini əhəmiyyətli dərəcədə yüksəldib ki, bunun sayəsində də yol verilən nöqsanların sayı azalıb, sənədlərlə iş aparılması sürətlənib.

Tətbiq olunan yenilik ölkəmizdən tranzit yüklərin daşınmasının həcminin artmasına da müsbət təsir göstərir. "Azərbaycan Dəmir Yolları" QSC-nin Yükdaşımalar departamentinin rəisi Emil Əhmədov deyir ki, yeni tətbiq olunmuş rəqəmsal naryad sistemi ADY-də saatlarla davam edən yük əməliyyatlarının müddətini 20 dəqiqəyə qədər azaldır: "ADY SMART" sistemində "Yük Əməliyyatları Xidməti" modulunda təqdim olunan bu funksionallıq müştərilərə naryadın ayrılması üçün müraciəti elektron qaydada, kağız sənədləşmə olmadan birbaşa təqdim etməyə, yük qaimələrini elektron şəkildə hazırlamağa, emal və maliyyə sənədlərini sürətlə qəbul etməyə, eləcə də sistem tərəfindən avtomatik hazırlanmış xidmət tariflərini əldə etməyə imkan verir. Avtomatlaşdırılmış naryad prosesi sayəsində müştərilər vaxta qənaət edib, sistemdəki elektron kabinetlərində naryadın ayrılma prosesinin bütün mərhələlərini və statuslarını izləyə bilərlər".

Azərbaycan Orta dəhlizlə bağlı işgüzar əlaqələrin coğrafiyasını genişləndirmək üçün də bir sıra görüşlər keçirir və yeni ölkələri bu marşrutdan istifadəyə təşviq edir. Belə ölkələrdən biri də Əfqanıstandır. Aparılan danışıqlar sayəsində Əfqanıstan yüklərin Azərbaycandan keçməklə daşınması barədə qərar qəbul edib.

Beynəlxalq tranzit marşrutuna çevrilmək üçün Azərbaycanın ən sıx əməkdaşlıq etdiyi ölkələrdən biri də Türkiyədir. Çünki Azərbaycan kimi Türkiyə də Şərqlə Qərbi birləşdirən mühüm coğrafiyada yerləşir və Şərqin Avropaya açılan qapısı hesab olunur. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin bu günlər Türkiyəyə işgüzar səfəri zamanı mövcud əlaqələri daha da inkişaf etdirmək üçün qardaş ölkənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu ilə səmərəli danışıqlar aparılıb. Görüş zamanı iki ölkə arasında nəqliyyat sahəsində mövcud əməkdaşlığı genişləndirmək, Orta dəhlizin daşınma imkanlarının artırılması sahəsində əməkdaşlıq və Bakı-Tbilisi-Qars layihəsinin inkişafı məsələləri ətraflı müzakirə olunub.

Bu ərəfədə Milli Məclisin deputatı Vüqar Bayramov Prezident İlham Əliyevin tranzit daşımaları və nəqliyyat sahəsində apardığı strateji siyasətin uğurla icra edildiyini bildirib. Deputat bu istiqamətdə ölkəmizdə aparılan işləri yüksək qiymətləndirərək deyib: "Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin rəqəmsal transformasiyası ölkəmizin qlobal nəqliyyat qovşağına çevrilməsi istiqamətində atılan vacib addımlardan biridir. ADY beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif rəqəmsal həllər tətbiq edərək yüklərin real vaxt rejimində izlənməsi, yükdaşıma tariflərinin avtomatlaşdırılmış şəkildə hesablanması və yüklərin daşınmasında şəffaflığın artırılması kimi innovativ yanaşmaları həyata keçirir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Coursera" şirkəti Azərbaycan universitetləri ilə əməkdaşlıq edəcək

**ABŞ-nin "Coursera" şirkətinin "Coursera for Campus" proqramı ilə bağlı məlumat sessiyası keçirilib. Proqram çərçivəsində "Coursera"nın yerli universitetlərlə tələbələrin rəqəmsal bacarıqlarının inkişafı, məşğulluğunun artırılması və digər sahələr üzrə əməkdaşlıq imkanları təqdim olunub.**

İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşəbbüsü və Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun (TİF) dəstəyi ilə ABŞ-nin "Coursera" şirkətinin "Coursera for Campus" proqramı ilə bağlı məlumat sessiyası keçirilib. Tədbirdə Elm və Təhsil Nazirliyinin və yerli universitetlərin nümayəndələri iştirak ediblər.

"Coursera for Campus" proqramının məqsədi təhsil müəssisələrinə təlim-tədris dəstəyi göstərmək, tələbələrin karyeralarına töhfə verməkdir. Bu təşəbbüs strateji problemlərin həllində universitetlər, kolleclər və müvafiq dövlət orqanları ilə əməkdaşlığı əhatə edir. Layihə təlim proqramlarının modernləşdirilməsi, tələbələrin məşğulluğunun və nailiyyətlərinin artırılması, rəqəmsal bacarıqların inkişafı, həyatboyu öyrənmə kimi sahələri əhatə edir.



"Coursera for Campus" proqramı çərçivəsində tələbələr dünyanın tanınmış universitetlərinin və şirkətlərinin kurslarını bitirərək sertifikat əldə etmək imkanı qazanacaqlar. Həmçinin Azərbaycan universitetləri gələcəkdə öz tədris proqramları ilə "Coursera" platformasına qoşula bilərlər.

4SİM-in icraçı direktoru Fariz Cəfərov proqramın Azərbaycanda tələbələrin şəxsi inkişafı, o cümlədən elm və sənaye 4.0 klasterinin formalaşdırılması üçün əhəmiyyətli olduğunu vurğulayıb. TİF-in İdarə Heyətinin sədri Elnur Nəsibov "Coursera" ilə əməkdaşlığı təhsilin beynəlmiləlləşməsi istiqamətində mühüm addım kimi dəyərləndirib.

Tədbirdə "Coursera for Campus" proqramının Avropa və Böyük Britaniya üzrə direktoru Endi Pul və "Coursera"nın Hökumətlərlə Tərəfdaşlıq üzrə direktoru Akankşa Kapur "Ali təhsilin generativ süni intellekt və onlayn öyrənmə ilə transformasiyası" mövzusunda təqdimatla çıxış ediblər. Təqdimatda generativ süni intellektin təhsil sahəsinə təsirləri, süni intellektdən istifadə imkanları barədə məlumat verilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Dünya birjalarında neft bahalaşıb



**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,65 dollar artaraq 77,23 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,67 dollar artaraq 73,91 dollar təşkil edib.

## 800-ə yaxın uşağa sosial xidmətlər göstərilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin müəssisələrində hazırda 800-ə yaxın uşağa xidmət göstərilir.**

Onlardan 467 nəfəri uşaq evləri və ailə tipli kiçik qrup evlərində, qalanları agentliyin digər müəssisələrində daimi dövlət himayəsində yaşayırlar. Sosial xidmət müəssisələrindəki uşaqlardan 280 nəfəri əlilliyi olan uşaqlardır.

Uşaqlar müəssisələrə qəbul olunduqdan sonra sosial işçi tərəfindən ilkin qiymətləndirmə aparılır, fərdi qayğı planı hazırlanır və sosial reabilitasiya prosesinə cəlb edilirlər.

Fərdi iş planı üzrə və digər aidiyyəti qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində onların sosial reabilitasiyası, sosial statuslarının bərpası istiqamətində işlər aparılır.



Həmçinin müəssisə sakinlərinin ilkin tibbi müayinəsi, psixoloji-emosional vəziyyətinin qiymətləndirilməsi, hüquqlarının müdafiəsi, onların mədəni-asudə vaxtının təşkili və s. üçün tədbirlər görülür.

# Aida İmanquliyeva - 85



# Şərqşünaslıq elmimizin böyük tədqiqatçısı

**Görkəmli şərqşünas alim Aida İmanquliyeva XX əsrdə Azərbaycan ərəbşünaslıq elminin əsas istiqamətlərinin müəyyən olunması, ərəb ədəbiyyatının müxtəlif problemləri və ayrı-ayrı mütəfəkkir ərəb yazıçılarının yaradıcılığının öyrənilməsi istiqamətində xüsusi xidmətləri ilə seçilir.**

Özündən sonrakı nəsil ərəb ədəbiyyatı araşdırmaçıları üçün Aida İmanquliyevanın tədqiqatları məktəb rolunu oynamışdır. Ərəb mühacirət ədəbiyyatını tədqiq etməyə başladığımız zaman bu sahədə ölkəmizdə yeganə tədqiqatçı olan Aida İmanquliyevanın zəngin irsi ilə tanış olurduq. Əmin ər-Reyhani, Cibran Xəlil Cibran, Mixail Nuaymə kimi məşhur ərəb yazıçılarının əsərlərinin öyrənilməsində, eyni zamanda ərəb ədəbiyyatının bir sıra ümumi məsələlərinin araşdırılmasında ərəbşünas alimin fikirləri istinad etdiyim ən əsas mənbələrdən idi. Aida İmanquliyevanın fəaliyyət sahəsi və yaradıcılığı geniş və zəngin idi.

Tarixboyu Azərbaycanın ictimai-siyasi və mədəni sferasında qadın ziyalılarımızın da mühüm və əhəmiyyətli rola malik olduğu milli ənənələrimizin davamçısı kimi Aida İmanquliyevanın fəaliyyətində üç əsas sahəni ayırd etmək mümkündür.

İlk növbədə Aida xanımın Azərbaycan şərqşünaslığı tarixində ilk qadın alimlərdən biri, bu sahədə doktorluq dissertasiyası müdafiə edən birinci xanım tədqiqatçı kimi fəaliyyəti diqqəti cəlb edir. Ərəbşünas alimin araşdırdığı problemin - ərəb mühacirət ədəbiyyatı mövzusunun elmi tematikası zəngin və mürəkkəb olmaqla yanaşı, yeni və tədqiq olunmamış bir istiqamət idi.

Aida İmanquliyevanın tədqiqatlarının əsas hissəsinin, monoqrafiya və məqalələrinin böyük bir qisminin həsr olunduğu ərəb mühacirət ədəbiyyatının araşdırılmasının başlıca əhəmiyyətini şərqşünas alim özü çox düzgün olaraq şərh etmişdir. Tədqiqatçıya görə, VIII-XII əsrlərdə çiçəklənmə mərhələsini yaşayaraq intibah dövrünün mədəni yüksəlişinə öz əhəmiyyətli töhfəsini verən ərəb mədəniyyəti XIX əsrin sonu - XX əsrin əvvəllərində məhcər ədəbiyyatının formalaşması, bu ədəbi istiqamətin yüksək fəaliyyəti ilə bir daha xüsusi zirvə fəth etmişdir.

Müəyyən zaman daxilində ABŞ-də fəaliyyət göstərən, milli ədəbiyyatı, eləcə də Şərqin çoxəsrlik inkişaf tarixinə malik ədəbi ənənələri, dini-fəlsəfi dünyagörüşü, ictimai-siyasi fikirlərini dünya mədəniyyətinin müxtəlif analoji düşüncə sferası ilə vəhdətdə ifadə edən ərəb mütəfəkkir yazıçılarının - Cibran Xəlil Cibran, Əmin ər-Reyhani və Mixail Nuaymənin multikultural dəyərlərlə zəngin yaradıcılığının tədqiqi Azərbaycan elminə bir sıra yeni keyfiyyətlər gətirmişdir.

Ərəb mühacirət ədəbiyyatının öyrənilməsi bədii ədəbiyyatın xüsusi forması olan, milli ədəbiyyatın dünya mədəniyyətinə inteqrasiyasında optimal və intensiv ədəbi şəraitin əsas göstəricisi kimi çıxış edən mühacirət ədəbiyyatı nəzəriyyəsinin aydınlaşdırılmasına gətirib çıxarır. Dünya elmində Orientalizm konsepsiyasının ən məşhur nəzəriyyəçilərindən biri olan Edvard Said Qərb mədəniyyətini bir çox sahədə sürgün edilənlərin, mühacirlərin, qaçqınların yaradıcılıq məhsulu hesab edir. Bu kontekstdən yanaşdıqda ABŞ-dəki ərəb ədəbiyyatını da sırf milli ədəbiyyatın mühacirətdəki fəaliyyət qrupu kimi səciyyələndirmək olmaz. Ərəb ədiblərinin ingilisdilli fəaliyyəti onların milli ədəbiyyatın sərhədlərini aşmağa, təkcə mövzu, forma, ədəbi ənənələr deyil, dil göstəricisi baxımından da ərəb-Amerika yazıçıları kimi qəbul olunmalarına yol açdı. Mixail Nuaymə Cibran Xəlil Cibranın ingilisdilli ilk kitabı olan "Dəli" kitabını dəyərləndirərkən mühacir yazıçının ikidilli yaradıcılıq fəaliyyətinin məhz mədəniyyətləri qovuşdurmaq arzusundan qaynaqlandığını ifadə edirdi: "O, bilirdi ki, ruhunda rəssam və şair əkizdir. O, amerikalılara poeziyasını yox, rəssamlığını gətirmişdir, dili bir qardaşlarına isə rəssamlığını yox, poeziyasını qoymuşdur. Nə ərəblər təsviri incəsənəti anlamadıqları üçün onun rəssamlığından bir şey başa düşürdülər, nə də amerikalılar ərəb dilini bilmədikləri üçün onun poeziyasından bir şey dərk edirdilər. Deməli, əgər o, iki şeyi birləşdirmək istəyirdisə, ingiliscə yazmalı idi. Bu onun çoxdankı arzusu idi".

"Mən iki dünyanın vətəndaşıyam - kainatın vətəndaşıyam" deyən Əmin ər-Reyhani də ikidilli yaradıcılıq prosesini ədəbi düşüncənin qlobal həllində ən önəmli vasitələrdən sayırdı. Əgər müasir dövrümüzdə "ingilis dili sanki öz milli mənsubiyyətini itirir, qloballaşmanın həqiqi dili, müasir dünyanın "linqua-franca"sı" kimi dəyərləndirilirsə, bu təlimin ədəbiyyatdakı təzahürlərini daha öncəki dövrlərdə müşahidə edir, məhcər ərəb yazıçılarının bədii irsində görürük. Burada artıq Şərq düşüncəsi Qərb dilində danışırsa, o, milli ədəbiyyatın dünya ədəbiyyatına birbaşa inteqrasiyası, dünyanın ədəbi-bədii yaradıcılıq sferasında qəbulolunma faktı, ən başlıcası isə ədəbi dəyərlərin vəhdəti, fərqli dünyagörüşlərinin sintezi kimi meydana çıxır. Ona görə də ərəb ədiblərinin yaradıcılığı multikultural dəyərlərlə zəngindir. Bu baxımdan da ərəbşünas alim A.İmanquliyeva çox haqlı bir nəticəyə gəlir ki, "ərəb məhcər ədəbiyyatının bütün ərəb ədəbiyyatının inkişafı tarixində kiçik epizod olmasına baxmayaraq, "Suriya-Amerika məktəbi"nin yazıçıları həm ərəb Şərqində, həm də Qərbdə çox geniş şöhrət qazanmışlar və onların yaradıcılığını nəzərə almadan yeni ərəb ədəbiyyatının inkişafının tam və dolğun mənzərəsini təsəvvürə gətirmək qeyri-mümkündür".

Aida İmanquliyevanın tədqiqatları müqayisəli ədəbiyyatşünaslığın mühüm məsələlərinin araşdırılması, ərəb yazıçılarının yaradıcılıq nümunəsində Şərq və Qərb ölkələri ədəbiyyatlarının ortaq, uyğun və fərqli problemlərinin öyrənilməsi, qarşılıqlı və birtərəfli təsir nəzəriyyəsinin şərhini qarşıya qoyur. Ərəbşünas alim yazır: "Bu yazıçıların yaradıcı fəaliyyətinin əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini ən yaxşı milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər". Həqiqətən də, Ə.ər-Reyhani və C.X.Cibranın yaradıcılığında ingilis romantikləri və Amerika transsendentalizmi, M.Nüaymənin ədəbi-fəlsəfi irsində rus realizmi və nəzəri-estetik fikri ilə səsləşən məqamlar dünya ədəbiyyatının böyük bir sahəsinə kompleks şəkildə yanaşmaq, müqayisəli araşdırmalar aparmaq zəruriyyətini doğurur. İslam və xristian dini, sufizm və Qərb fəlsəfəsi, qədim hind mədəniyyəti və digər möhtəşəm mənbələrdən qaynaqlanan mövzu və ideyaları da nəzərə alsaq, ərəb yazıçılarının yaradıcılıq sferası və A.İmanquliyevanın tədqiqatçılıq fəaliyyətinin sərhədlərini təsəvvür edə bilərik.

Bütövlükdə, ərəbşünas alimin müqayisəli ədəbiyyatşünaslıq sferasında tədqiq etdiyi ədəbi nümunələr üç əsas problem ətrafında ümumiləşdirilmişdir:

Birinci, mühacir yazıçıların yaradıcılığında Şərq və Qərb mədəniyyətinə baxış məsələsi ərəbşünas alimin diqqət mərkəzində olmuşdur. A.İmanquliyeva yazır: "C.X.Cibran, Ə.ər-Reyhani və M.Nuaymə özlərinin çoxcəhətli bədii yaradıcılıqlarında Avropa və Amerika ədəbiyyatının nailiyyətlərini mənimsəmiş, onların dəyərlərini ən yaxşı milli bədii ənənələrlə üzvi surətdə sintezləşdirmişlər".

Şərq və Qərb ölkələri arasındakı mədəni əlaqələrin tarixi nə qədər qədim olsa da, Şərq və Qərb problemi öz konseptual həllini son əsrlərin ədəbi-fəlsəfi və ictimai fikrində tapmış, XIX əsrin II yarısından sonra, xüsusilə sonlarına doğru qlobal düşüncənin aktual mövzularından birinə çevrilmişdir. Ərəb mühacirət ədəbiyyatının görkəmli nümayəndələri də Şərq-Qərb probleminə bədii düşüncə və mövzu çərçivəsində yanaşan ədiblərdən fərqli olaraq sistemli konsepsiya irəli sürmüş, prinsipial məqamları ortaya çıxarmışlar. Qərb ədəbiyyatında V.Şekspir, K.Marlo, B.Conson, D.Milton, V.Vordsvort, T.Mur, C.Q.Bayron, P.B.Şelli, V.Skot və s., ərəb ədəbiyyatında Q.Əmin, Ə.İshaq, M.Teymur və digərlərinin Şərq və Qərb mədəniyyətlərinin müqayisəli təqdimi ilə bağlı fikirlərindən daha ön plana keçərək məhcər yazıçılar problemini nəzəri təlim səviyyəsinə yüksəltdilər. "Ağ yol və Səhra" əsərində Şərq və Qərbi nəzərdə tutaraq "biz kifayət qədər dərinə və kifayət qədər yüksəyə gedəndə görüşürük" deyən ər-Reyhani mədəniyyətlərin birliyini vacib amil kimi dəyərləndirirdi.

A.İmanquliyevanın tədqiqatlarında müqayisəli ədəbiyyatşünaslığın nəzəri məsələləri çərçivəsində araşdırılan ikinci problem romantizmlə bağlıdır. Ərəb yazıçılarının yaradıcılıq metodlarından bəhs edərkən şərqşünas alim yazır: "Suriya-Amerika məktəbi"nin təcrübəsində Qərb və Şərq ənənələrinin sintezi problemi, bu məktəbin nümayəndələri tərəfindən Qərbi Avropa və Amerika romantizminin və rus tənqidi realizminin mənimsənilməsinin özünəməxsus xüsusiyyətləri problemi, onların əsərlərində yaradıcı metodun təkamülü problemi meydana çıxır".

İnsan şəxsiyyətinə böyük önəm vermək, cəmiyyət və təbiətə maddi və mənəvi tərəflərdən yanaşmaq, həqiqət, xeyir və gözəlliyin vəhdəti, klassik ədəbi irsə münasibət, vətən və millət haqqında düşüncələr, humanizm ideyaları, şair təxəyyülünə xüsusi yer verilməsi, poeziya və sənət məsələləri, təbiət və sivilizasiya, multikultural dəyərlər və digər mövzuları ilə ədəbiyyata yol açan romantizm mühacir ərəb yazıçılarının yaradıcılığında da aparıcı yer tutur. Əmin ər-Reyhani maarifçilik, Cibran Xəlil Cibran sentimentalizm, Mixail Nuaymə realizmin xüsusiyyətlərini müəyyən mərhələdə öz əsərlərində ifadə etsələr də, romantizm hər üç müəllif üçün xarakterik olmuşdur. Ə.ər-Reyhaniyə həsr etdiyi tədqiqatlarda əsas problemlərdən biri kimi "sənətkar Əmin ər-Reyhani Qərb, xüsusilə də Amerika romantizmini hansı dərəcədə qəbul edib və romantizmin ideya və konsepsiyaları onun yaradıcılığında hansı inkişaf səviyyəsinə çatıb" məsələsini irəli sürən görkəmli şərqşünas ərəb yazıçısının yaradıcılığını R.U.Emerson, U.Uitmen, H.Toro kimi Amerika transsendentalizminin görkəmli nümayəndələrinin əsərləri ilə müqayisəli tədqiqat prosesində öyrənmişdir.

Müqayisəli ədəbiyyatşünaslığın nəzəri problemləri sistemində A.İmanquliyevanın tədqiqatlarında araşdırılan üçüncü məsələ realizm ilə bağlıdır. Ərəbşünas alim M.Nuaymәni ərəb ədəbiyyatı tarixində realist hekayənin məşhur nümayəndələrindən biri kimi dəyərləndirərək yazır: "M.Nuaymənin hekayələrinin əsas məziyyəti də onların məhz real həyatı əks etdirməsidir". Görkəmli tədqiqatçı A.İmanquliyeva yazıçını "orijinal və özünəməxsus sənətkar" kimi səciyyələndirirdi: "Nuaymənin bütün hekayələri ərəb gerçəkliyinin səciyyəvi xüsusiyyətlərini əks etdirir. Onun novellaları yalnız süjet və məzmununa görə deyil, həm də öz ruhuna görə millidir".

A.İmanquliyevanın Azərbaycanın ictimai-mədəni həyatında reallaşdırdığı elmi-təşkilati fəaliyyəti də böyük əhəmiyyətə malik olmuşdur. Bir tərəfdən ərəbşünas alim Moskva, Sankt-Peterburq, Kiyev, Poltava, Hamburq, Halle kimi dünyanın müxəlif şəhərlərində keçirilən beynəlxalq elmi konfranslarda Azərbaycan elmini təmsil etmişdir. Digər tərəfdən isə A.İmanquliyeva Şərqşünaslıq İnstitutunda şöbə müdiri, direktor müavini və direktor kimi mühüm təşkilati işləri reallaşdırmışdır.

Bütün bunlar görkəmli şərqşünas alim Aida İmanquliyevanın multikultural dəyərlərlə zəngin ədəbiyyatı tədqiq etməklə Azərbaycan ərəbşünaslığının inkişafındakı mühüm rolunu göstərir, cəmiyyətimizin elmi mühiti və mədəni həyatındakı yüksək fəaliyyətindən xəbər verir.

*Bəsirə ƏZİZƏLİYEVA,*
*filologiya elmləri doktoru, dosent*

## Şərqşünaslıq İnstitutunun kollektivi professor Aida İmanquliyevanın xatirəsini anıb

**AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi oktyabrın 10-da görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 85-ci ildönümündə alimin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıb, məzarı üzərinə əklil qoyub.**



AZƏRTAC xəbər verir ki, AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva çıxış edərək Aida İmanquliyevanın şərqşünaslıq elminə böyük töhfələr verdiyini, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru kimi bu sahənin inkişafında böyük xidmətləri olduğunu deyib.

Dünyaşöhrətli şərqşünaslarla bir sırada adı çəkilən Aida İmanquliyevanın Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu bildirən akademik G.Baxşəliyeva onun əsərlərinin dönə-dönə oxunduğunu, təhlil və tədqiq edildiyini, tərcümə olunduğunu, yenidən işıq üzü gördüyünü deyib.

Görkəmli alimin həyatdan erkən getməsinin onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdiyini və sarsıtdığını qeyd edən G.Baxşəliyeva Aida İmanquliyevanın əziz xatirəsinin onların qəlbində əbədi yaşayacağını deyib.

Anım mərasimində iştirak edən AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvü Zərifə Quliyeva Aida İmanquliyevanın müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, yeni bir məktəbin əsasını qoyduğunu deyərək, onun Azərbaycan şərqşünaslığının inkişafına böyük töhfələr verdiyini bildirib.

## Milli Kitabxanada "Şərqşünas alim Aida İmanquliyeva" adlı kitab sərgisi keçirilir

**Görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum günü münasibətilə Milli Kitabxanada "Şərqşünas alim Aida İmanquliyeva" adlı virtual sərgi və ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Aida İmanquliyevanın əsərləri, dövri mətbuat səhifələrində dərc olunan məqalələri, onun haqqında əsərlər və fotolar təqdim olunur.

Ənənəvi sərgidə alimin əsərləri, fundamental elmi tədqiqatları, dəyərli, sanballı monoqrafiyaları, tərcümələri, həyatı və genişmiqyaslı elmi yaradıcılığı, şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən bəhs edən Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.

Ənənəvi sərgi bir həftə davam edəcək.

## Xalq rəssamı Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunmuş rəsm sərgi-müsabiqəsi elan edilib

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə Xalq rəssamı Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunmuş "Tablolarda nağıllar" adlı gənc rəssamların yaradıcılıq müsabiqəsi keçirilir.**

Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

"Azərbaycanın xalq nağılları təsviri sənətdə" mövzusunda keçirilən müsabiqədə 18-30 yaşarası gənc rəssamlar iştirak edə bilər. Rəssamların Azərbaycanın şifahi xalq ədəbiyyatından götürülmüş müxtəlif epizodların (hadisələrin), obrazların əks olunduğu əsərləri qəbul ediləcək.

İştirakçılardan müsabiqə-sərgiyə təqdim edəcəkləri işlər haqqında məlumatla-




rı 2024-cü il noyabrın 25-dək sergimusabiqe@gmail.com elektron ünvanına göndərmələri xahiş olunur.

Mövzu üzrə hazır, orijinal əsərlər haqqında dəqiq məlumatlarda - əsərin fotosu, müəllifin ad və soyadı, təvəllüdü, əlaqə nömrəsi, əsərin adı, ölçüsü, texnikası, həmçinin əsərin yaradılma ili qeyd edilməlidir. Əsərlər tək-tək göndərilməli, məlumatlar dolğun olmalıdır.

Seçim üçün elektron ünvana məlumat göndərən rəssamlardan əlaqə nömrələrini qeyd etmələri xahiş olunur. Rəsm müsabiqə-sərgisinə hər bir iştirakçı 2 rəsm işi göndərə bilər. Orta və böyükölçülü əsərlərə üstünlük veriləcək (Məsələn: 60x70, 70x90, 100x100 sm və s.). Əsərlərin səliqəli və çərçivələnmiş olması vacibdir.

Bildirilib ki, əsərlərin ilkin seçim mərhələsi onlayn qaydada aparılacaq. Daha sonra seçilmiş əsərlərdən müsabiqənin qaliblərinin müəyyənləşdirilməsi professional rəssamlardan ibarət münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

Əsəri sərgilənən hər bir iştirakçıya sertifikat, qaliblərə isə diplom və dəyərli hədiyyələr (birinci, ikinci və üçüncü yer üçün) təqdim olunacaq.

Seçilmiş əsərlər 2024-cü il dekabrın 6-dək sərginin keçiriləcəyi ünvana çatdırılmalıdır.

## Azərbaycanın ilk professional bərpaçı-rəssamının 95 illik yubileyi qeyd olunub

**Azərbaycanın ilk professional bərpaçı-rəssamı, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin banisi Fərhad Hacıyevin 95 illik yubileyinə həsr olunmuş "Nəsillərin görüşü..." adlı tədbir keçirilib.**

Bu barədə AZƏRTAC-a mərkəzdən məlumat verilib.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində təşkil olunan tədbirdə çıxış edən qurumun direktoru, Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova Fərhad Hacıyevin fəaliyyətinin yüksək qiymətləndirildiyini vurğulayıb.





Sonra mərkəzin Elmi-tədqiqat şöbəsinin müdiri Ülviyyə Şirinova Fərhad Hacıyevin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış edib. Məruzədə Fərhad Hacıyevin ilk bərpa etdiyi Qərbi Avropa rəssamlıq məktəbinin nümunəsi olan "Monastr apteki" tablosu və mühüm bərpa işlərindən biri İ.İ.Brodskinin çəkdiyi "Hacı Zaynalabdin Tağıyevin portreti" xüsusi qeyd olunub.

Digər çıxış edənlər Azərbaycanın ilk ali dərəcəli bərpaçı-rəssamı Fərhad Hacıyevlə bağlı xatirələrini bölüşüblər.

Daha sonra Fərhad Hacıyevin fəaliyyəti illərində çəkilmiş arxiv filmi, Elmi Bərpa Mərkəzinin dünəninə və bu gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonda "Nəsillərin görüşü" adlı fotosərgiyə, mərkəzin elmi arxivində toplanan qurumun fəaliyyətinə dair nəşrlərə baxış olub.




# Mavi Xəzərin "yaşıl sahil"i

## Qızılağac Milli Parkı Azərbaycanda ekoturizmin inkişafı üçün böyük imkanlar açır

◆ Azərbaycan COP29-a hazırlaşır

**Səhərdir...**

**Səmada başbaşa verən quşların səs-küyündən qulaq tutulur...**

**Körfəzin üstündə aypara şəklində, bulud topası kimi dövrə vuran quşlar elə bil səmada Azərbaycanın xəritəsini çəkməyə çalışırlar. Günəşin şüaları ağır-ağır qanad çalıb dövrə vuran qazların, durnaların ipək kimi parlaq qanadlarının üstünə düşdükcə göy üzü əlvan rəngə boyanır.**

**Sanki yurdumuza uçub gələn quşların Qızılağac Milli Parkının səmasında "paradı" keçirilir. Çox da yüksəkliyə qalxa bilməyən, səmanın alt qatında uçuşan sığırçınlar da "geri qalmamaq" üçün öz bacarıqlarını nümayiş etdirməyə çalışırlar...**

**Göy üzü göy qurşağı rəngini almışdı...**

**Günəş şəfəqlərini Xəzərin mavi sularının üstünə səpdikcə pıçıldaşan ləpələr daha çox qızılı rəng alırdı. Sanki bura yerlə göyün birləşidiyi yerdir...**

**Bu mənzərə yə baxanda adam istər-istəməz düşünür ki, quşlar səmadan Xəzərin, Lənkəranın, Qızılağac Milli Parkının yerləşdiyi ərazinin gözəlliyini daha çox seyr etmək üçün bu qədər dövrə vurub, məskən salacaqları bu yerləri yaddaşlarına həkk edirlər...**



### Leyla Əliyevadan Milli Parka böyük töhfə

Bu ərazi 1929-cu ildə Qızılağac Dövlət Təbiət Qoruğu adı ilə Xəzər dənizi sahilinin cənub-qərbində 88,4 min hektar ərazidə köçəri, su, bataqlıq və çöl quşlarının qışlaması, artırılması və qorunması məqsədilə yaradılıb. Ərazisi və ətrafı su, bataqlıq və yarımsəhra bitkiləri ilə zəngindir.

1976-cı il fevralın 2-də UNESCO-da "Su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan su-bataqlıq yerləri haqqında" Ramsar Konvensiyası imzalanıb. Konvensiya Azərbaycan tərəfindən 2001-ci il iyulun 18-də ratifikasiya edilib. Ölkəmizdəki Ağgöl və Qızılağac milli parkları Ramsar Konvensiyasının siyahısına daxil edilib. Bu, bir daha Milli Parkın tək respublikamızda deyil, həmçinin beynəlxalq səviyyədə əhəmiyyətini göstərir.

2018-ci ildə Prezident İlham Əliyev qoruqla bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, təbii resurslardan səmərəli istifadəsini və ekoturizmin inkişafını təmin etmək məqsədilə Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığına aid torpaqlardan 10390,89 hektar və Neftçala rayonunun inzibati ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqlarından 309,11 hektar ayrılmaqla, Qızılağac Dövlət Təbiət Qoruğunun (88360 hektar) bazasında bu sərəncama əlavə edilən yer quruluşu planında göstərilmiş 99060 hektar sahədə Qızılağac Milli Parkı yaradılıb. 2019-cu il fevralın 22-də Prezidentin fərmanı ilə Qızılağac Milli Parkının Əsasnaməsi təsdiq edilib. Əsasnamədə qeyd olunur ki, Milli Park xüsusi ekoloji, tarixi, estetik, bioloji əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, ətraf mühiti mühafizə, maarifçilik, elmi, mədəni, ekoturizm məqsədləri üçün istifadə edilən təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusu olan ərazidir.

Qızılağac Milli Parkı Lənkəran, Masallı və Neftçala rayonlarının inzibati ərazilərində yerləşir. Bura Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisi hesab olunur.

Son onilliklər ərzində ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması, ölkəmizin daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.




Bu cür təşəbbüslərdən biri 2021-ci ildən etibarən IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdikləri "Zəngin hövzələr" layihəsidir. Bu layihə çərçivəsində 2021-ci il aprelin 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qızılağac Milli Parkına səfər edib. Milli Parkın ərazisi, zəngin fauna və florası ilə tanış olan Leyla Əliyeva daha sonra Xəzər dənizinin körfəzinə körpə balıqların buraxılması, o cümlədən ölkəmizin yaşıllıq və meşə ərazilərinin artırılmasına dəstəyi nümayiş etdirmək məqsədilə milli parkın ərazisində Eldar şamlarının əkilməsi mərasimində iştirak edib.

2023-cü il dekabrın 30-da Nizami Kino Mərkəzində IDEA İctimai Birliyinin "Azərbaycanın 10 möcüzəsi" xüsusi layihəsi çərçivəsində yeddinci ekran əsəri olan "Qızılağac Milli Parkı - Xəzər nağılı" sənədli filminin təqdimat mərasimi keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib. Filmdə 2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Qızılağac Milli Parkının ərazisində mövcud olan qlobal əhəmiyyətli, adları Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş məməlilər, endemik və nəsli kəsilməkdə olan növlər və transsərhəd köçəri heyvanlar, həmçinin ərazi üçün xarakterik olan digər fauna və müxtəlif flora növləri haqqında bəhs olunur.




Ümumiyyətlə, IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

### Müharibələrdən qaçıb sabitlik adasına sığınan quşların sevinci

Payızın ilk günlərində Qızılağac Milli Parkının gözəlliyini seyr etmək adama zövq verirdi. Bizə elə gəlirdi ki, körfəzdəki şanagülə, ağ suzanbağı, üçyarpaq oxyarpaq, qamış, dəniz lığvarı, ciyən, duzlaq şoğanı, iyli yovşan, meyer yovşanı, qarağan, gəngiz, şahsevdisi, sarıbaş da gələn "qonaqları" salamlayıb "gəlin, gəlin, bura dünyanın ən dilbər guşəsi", "Azərbaycan dünyanın ən sakit ölkəsidir", - deyirdilər.

Hələ bir qorxusuz-hürküsüz turistlərin fotoaparatlarının, telefonlarının obyektivinə "düşməyə" çalışan qamışlıq pişiyini, flaminqoları, ağqaş qazları, göydimdik, mərməri ördəkləri, sürü ilə lövbər salan bəzgəklərin özlərini necə rahat, arxayın aparmalarını görəydiniz...

Silahların partladığı, raketlərin uçuşduğu, nəinki təbiət heyvanlarının, insanların qan gölündə boğulduğu ölkələrdən uçub gələn bu quşlar azadlıq adasına düşmüş kimi davranırdılar. İnsanlardan qorxub qaçmayan, hətta onların gözəlliyini obyektivin yaddaşına köçürən turistlərin əlindən yem alıb yeyənlər də var idi...

Milli Parkın direktoru Aqil Sucayev deyir ki, parkın yaradılmasında əsas məqsəd təbiət komplekslərini, genetik fondu, bioloji müxtəlifliyi, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq, turizm və rekreasiya üçün şərait yaratmaqdır, eyni zamanda təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək, əhalini ekoloji cəhətdən maarifləndirməkdir. Milli Parkın əsas hissəsi su-bataqlıq və Xəzər dənizi sahilindən ibarətdir. Qayıqla sahəsi 17 min hektar olan Kiçik körfəz adlanan əraziyə səyahət edirik.

Qarşımıza "Qırmızı kitab"a daxil olan qamışlıq pişiyi, qızılqaz, ağqaş qaz, adi göydimdik, mərməri ördək, çöl leyi çıxır. Qayığın motoru səsli-küylü olsa da, quşlarda, heyvanlarda heç bir təlaş hiss etmirik. Aqil müəllim deyir ki, Milli Parkın ərazisində xüsusi mühafizə rejimi fəaliyyət göstərir. Sanki məskunlaşmış canlılar hiss edirlər ki, burada onların həyatı üçün hər hansı bir təhlükə yoxdur və ola da bilməz. Yalnız istisna olaraq həvəskar balıqçılara qarmaqla balıq ovlamağa icazə verilir.

### Xarici turistləri ən çox maraqlandıran hadisə...

Milli Parkda çöl quşları ilə yanaşı, 4 növ azyayılan Qafqaz endemik bitkisinin üç növünə də rast gəlmək olar. Yalnız Qafqaz regionunda rast gəlinən hibrid qovağı, sapvari bağayarpağı, Qrossgeym topgülü və bir növ Azərbaycan endemiki-buruncuqlu turp Milli Park ərazisində qeydə alınıb.

Milli Parkın yaradılmasında əsas məqsədlərdən biri də ölkəmizdə ekoturizmin inkişaf etdirilməsidir. Təbiətə səyahətin başlıca məramı canlı təbiətlə və həmçinin yerli ənənə və mədəniyyətlə tanışlıq, ekoloji və sosial xarakterli mənfi təsirlərin minimuma endirilməsi və mühitin ekoloji tarazlığını təmin etməkdir.

Milli Parkın əməkdaşı Elşad Əsgərov bildirir ki, ekoturizm təbiət turizminin ekoloji cəhətdən davamlı formasıdır, əsasən vəhşi təbiətdə yaşamağa və onu dərk etməyə istiqamətlənir. Bu, elə təşkil olunmalıdır ki, ətraf mühitə təsir minimum olsun. Əsasən turizmin belə forması qorunan ərazilərdə inkişaf edir.

Qızılağac Milli Parkı fəaliyyətə başlayandan istər yerli, istərsə də xarici turistlərin sevimli məkanına çevrilib. Hər il minlərlə turist Milli Parka səyahət edir. Turistlərin rahatlığı üçün çox mühüm işlər görülüb. Xüsusilə canlı təbiətlə təmaslar üçün katerlər, kiçik qayıqlar gətirilib. Yay mövsümündə gələn xarici turistləri ən çox quşların balalamaları maraqlandırır. Quşların balalarının yumurtadan necə çıxmalarını saatlarla gözləyən, maraqla seyr edən yüzlərlə turist bundan zövq alır. Mili Parka gələn turistlərin sayının artması ətraf yaşayış məntəqələrinin əhalisinin yaşayışına da müsbət təsir göstərir.

Ölkəmizə gələn xarici turistlərin çoxu yerli əhalinin yaşayış tərzi, adət-ənənəsi, ərazinin tarixi və mətbəxi ilə də tanış olmaq istəyir.

Parkda ekoturizm inkişaf etdirilməklə yanaşı, ətraf ərazilərdə də kənd turizminin canlandırılmasına xususi diqqət yetirilir.

### Təbiətin nadir incisi

Ölkəmiz hazırda COP29-a evsahibliyi etməyə hazırlaşır. Hesab edirik ki, Qızılağac Milli Parkı ölkəmizə gələn qonaqların maraqla üz tutacağı məkanlardan olacaq. Turistlər katerlərlə birbaşa dənizlə rahat təmas yarada bilsinlər deyə Milli Parkın ofisinin yerləşdiyi ərazidən dənizə gedən kanal təmizlənərək maneəsiz hala gətirilib.

Elşad Əsgərov deyir ki, gələn turistləri təbiətin nadir incisi olan flaminqoları yaxın məsafədən görmək daha çox maraqlandırır. Elə hesab edirik ki, gördüyümüz tədbirlər ölkəmizə gələn xarici qonaqları məmnun edəcək.

Parkın direktoru Aqil Sucayev əlavə edir ki, Milli Parkda turizmin inkişaf etdirilməsi istiqamətində mütəmadi tədbirlər keçirilir. 2023-cü ildə Milli Parkda dünyada ilk dəfə "Flaminqo festivalı" təşkil olunub. Tədbir yerli və xarici qonaqlar tərəfindən olduqca rəğbətlə qarşılanıb...

Milli Parkda respublikanın ali təhsil müəssisələrinin müəllim və tələbə heyətinin elmi axtarışlarını davam etdirmələri üçün də hər cür şərait yaradılıb. Bura məktəblilərin ən çox ekskursiyaya gəldikləri məkana çevrilib. Tələbələr, şagirdlər kitablarda oxuduqlarını, sənədli filmlərdə gördüklərini gəlib, canlı şəkildə gözləri ilə görüb biliklərini etibarlı şəkildə zənginləşdirmək imkanı əldə edirlər.

Rəngarəng təbiəti, başıqarlı dağları, yaşıl ormanları, buz bulaqları, mavi gözlü gölləri ilə vətənimiz Azərbaycan əsl təbiət gözəlinə bənzəyir. Hansı guşəsinə ayaq basırsansa, gözün gözəllik görür, ruhun dincəlir. Heç çəkinmədən deyə bilərik ki, belə unikal məkanlardan biri, bəlkə də birincisi, təbiət möcüzəsi sayıla biləcək Qızılağac Milli Parkıdır.

***Elşən QƏNİYEV,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Lənkəran-Bakı*

# COP29 iddiaları və öhdəlikləri real nəticələrə çevirməlidir

**COP29 iddiaları və öhdəlikləri real nəticələrə çevirməlidir. Biz iqlim dəyişikliyi ilə bağlı mübarizədə çox mühüm mərhələyə çatmışıq. Birgə səylərimizi əsirgəməməliyik.**



"Trend" xəbər verir ki, bu barədə BMT-nin Baş katibinin müavini Əminə Ceyn Məhəmməd BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) zamanı çıxışında deyib.

O qeyd edib ki, temperaturun bir az daha artmasına mane olmalıyıq.

"Temperaturun daha da artması fəlakətlərə səbəb ola bilər. İnkişaf edən ölkələrin və beynəlxalq maliyyə institutlarının səsini ucaltmaqla nailiyyətlərə imza atmalı, maliyyə boşluğunu bərpa etməliyik.

COP29 iddiaları və öhdəlikləri real nəticələrə çevrilməlidir. Paris sazişinə üzv olan hər bir ölkə adaptasiya tədbirləri həyata keçirməlidir. Bütün tərəflərin vahid razılığa gəlmək niyyətini gördüm. Bu, hədəflərimizə çatmağı mümkün edir. Zaman bu sazişə uyğun hərəkətetmə zamanıdır. Bakı bu məsələlərin həllinə təkan verəcək. Düşünürük ki, COP29 konkret nəticələr ortaya qoyacaq. BMT bu prosesə dəstək olmağa hazırdır",- deyə o bildirib.

Qeyd edək ki, Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (UNFCCC) ərəfəsində Pre-COP29 iclası keçirilir.

Konfrans "Ambisiyaların gücləndirilməsi və fəaliyyətin təmin edilməsi" devizi ilə baş tutur.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28 plenar iclasında qəbul edilib. İki həftə ərzində dünyanın mərkəzinə çevrilən Bakı 70-80 minə yaxın xarici qonaq qəbul edəcək.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir. "COP" (Conference of Parties) abbreviaturası İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ən yüksək qanunverici orqan olan "Tərəflərin Konfransı" mənasını verir.

Konvensiyada 198 ölkə iştirak edir. Tərəflər başqa cür razılaşmırsa, COP hər il keçirilir. İlk COP tədbiri 1995-ci ilin martında Berlində baş tutdu və onun katibliyi Bonnda yerləşir.

# QHT rəhbərləri üçün məlumat sessiyası keçirilib



**Oktyabrın 9-da Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə COP29 Azərbaycan Əməliyyat Şirkəti (ƏŞ) tərəfindən QHT rəhbərləri üçün COP29 ərəfəsində məlumat sessiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, sessiyada Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və COP29 Əməliyyat Şirkətinin Koordinasiya Şurasının üzvü Ayan Nəcəf qısa açılış nitqi ilə çıxış edib, tədbirin davamında isə agentliyin digər nümayəndələri və ƏŞ-nin aidiyyəti sahələr üzrə mütəxəssisləri əhatəli çıxışlarla iştirak ediblər.

Görüşdə COP29 konfransı zamanı dayanıqlılıq siyasətləri, müyəssərlik və inklüzivlik məsələləri, "Yaşıl Zona"da QHT-lər üçün potensial imkanlar, Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının COP29-da iştirak məqsədləri və gözləntilər, tədbir zamanı proqramlaşdırma məsələləri üzrə tövsiyələr kimi mövzular ətrafında müzakirələr aparılıb. Həmçinin əhali arasında dayanıqlılıq istiqamətində səriştələrin, eləcə də məlumatlılıq səviyyəsinin artırılması, COP29 və ümumilikdə "yaşıl keçid" mövzusunda maarifləndirmə prosesində QHT-lərin mühüm rolu vurğulanıb.

Sessiyanın keçirilməsində məqsəd COP29 çərçivəsində təşkil ediləcək fəaliyyətə dair QHT nümayəndələrinin məlumatlandırılması, onların "Yaşıl Zona"da iştirakının maksimal səmərəli formada təşkil edilməsi üçün təklif olunan müxtəlif imkanların müzakirəsi, eləcə də ümumilikdə COP prosesi barəsində məlumatların paylaşılmasıdır.

Eyni zamanda 50-dən artıq QHT nümayəndəsinin iştirak etdiyi informasiya sessiyasında "Yaşıl Bölgə"də olacaq QHT-lər üçün yaradılan imkanlar mövzusunda məlumatlar verilib, QHT-lərin sualları cavablandırılıb.

# COP29-un "Yaşıl Zona"sı üzrə media akkreditasiyası portalı istifadəyə verilib

**COP29 Azərbaycan Əməliyyat Şirkəti COP29 iqlim konfransı çərçivəsində fəaliyyət göstərəcək "Yaşıl Zona" üzrə media akkreditasiya portalını istifadəyə verib.**

AZƏRTAC xəbər verir ki, bu ilin 11-22 noyabr tarixlərdə ölkəmizin evsahibliyi edəcəyi COP29 iqlim konfransı çərçivəsində COP29 sədrliyi tərəfindən təşkil və idarə ediləcək, iqlim dəyişmələrinə qarşı mübarizədə innovasiyalar və potensial həllər üzrə dinamik mərkəz olacaq "Yaşıl Zona"ya media nümayəndələrinin akkreditasiyası açıq elan edilib. Akkreditasiya prosesi yeganə rəsmi mənbə olan akkreditasiya portalı vasitəsilə oktyabrın 9-dan etibarən fəaliyyət göstərir, son qeydiyyat tarixi isə oktyabrın 30-u saat 23:00 (GMT+4) olaraq təyin edilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası tərəfindən idarə edilən, rəsmi görüş və danışıqların məkanı olan "Mavi Zona" ilə yanaşı, "Yaşıl Zona" müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və "Mavi Zona" nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasına malik olmaqla iqlim konfransının işıqlandırılması üçün media nümayəndələrinə geniş imkanlar təmin edəcək. Belə ki, "Yaşıl Zona" üzrə akkreditasiyadan keçən jurnalistlər bir sıra müxtəlif tədbirlərə qatılmaq, iqlim fəaliyyətində aktiv iştirak edən qurum, şirkət və simalarla birbaşa əlaqə yaradaraq eksklüziv kontentlə çıxış etmək imkanı qazanacaqlar.

Akkreditə olunmuş media nümayəndələri həmçinin "Yaşıl Zona"da media fəaliyyətinin operativ və səmərəli təşkili üçün qurulan Media Mərkəzi və müvafiq digər infrastruktur və texniki imkanlardan yararlana biləcəklər.

Qeyd edək ki, media akkreditasiyası Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən tanınan ölkələrdə media təşkilatı kimi qeydiyyatdan keçmiş rəsmi və etibarlı media qurumunu təmsil edən media nümayəndələri üçün nəzərdə tutulub. Yerli media nümayəndələri həmçinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin reyestrində qeydiyyatda olmalıdırlar.

COP29-un "Yaşıl Zona"sı üzrə media akkreditasiyası prosesi ilə bağlı tələblər və digər ətraflı məlumatın əldə edilməsi üçün COP29 rəsmi veb-saytında mövcud müvafiq bölməyə keçid edilə bilər.

11 Oktyabr Beynəlxalq Qız Övladları Günüdür

# Qızlar, dünyanın sözü sizədir!

**XXI əsrin az qala dörddəbir hissəsinin arxada qaldığı, sadə dildə desək, dünyanın belə yüksək inkişaf mərhələsinə çatdığı, gender bərabərliyinin bərqərar olması üçün mütəmadi tədbirlər görüldüyü bir vaxtda müxtəlif ölkələrin ayrı-ayrı ailələrində qız övladına münasibət hələ də birmənalı deyil.**

Bir sıra ailələrdə oğlan və qız uşaqlarına qarşı aydın şəkildə ayrı-seçkilik müşahidə edilir. Ümumiyyətlə, qızlara ögey münasibət ayrı-ayrı yerlərdə müxtəlif aspektlərdə özünü göstərir.

Dünyanın bəzi yerlərində qızlar təhsildən, qidadan, səhiyyə xidmətlərindən oğlanlara nisbətən az bəhrələnə bilirlər, həmçinin informasiya texnologiyalarından az yararlanırlar. Qızların şiddətə məruz qalması haqqında da kifayət qədər faktlar var.

Bəzi yerlərin insanlarının şüurunda kök atmış stereotiplər ailədə qız uşağının doğulmasını arzuolunmaz edir. Odur ki, gənc valideynlərin "köməyi" ilə həkimlər cəllada çevrilərək qızların dünyaya gəlməsinə sədd çəkirlər. Lakin qız övladlarına münasibətdə mövcud olan problemlər bununla da bitmir. Bütün dünyada qız uşaqlarının həyatı üçün ən böyük təhlükələrdən biri onların erkən ərə verilməsidir.

Birləşmiş Millətlər Təşkilatı (BMT) nüfuzlu beynəlxalq missiya kimi bütün bu və digər neqativ halları müşahidə edərək bəşəriyyətə sanki kəsərli bir mesaj göndərib. Hələ 2011-ci ilin sonunda BMT Baş Assambleyası "Beynəlxalq Qız Övladları Günü"nün qeyd olunması ilə bağlı qətnamənin qəbulunu səsverməyə çıxarıb. Beləliklə, hər il oktyabrın 11-də bu bayramın qeyd olunması qərara alınıb. Bu günün keçirilməsində məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrı-seçkilikdən və baxımsızlıqdan əziyyət çəkən qızlara yönəltməkdir. Qız Övladları Günü əvvəlcə Kanadada, Türkiyədə, Peruda qeyd olunmağa başlayıb. Sonrakı illərdə onlara tədricən digər ölkələr də qoşulub.

Ötən dövr göstərir ki, Qız Övladları Günü adi bayram çərçivəsindən çıxaraq ilboyu ardıcıl, məqsədyönlü tədbirlərlə davam etdirilməlidir. Başqa sözlə, bu günün təsis edilməsində əsas məqsəd təkcə bayram keçirmək deyil, diqqəti sözügedən sahədə olan qəbuledilməz vəziyyətə cəlb etməkdən və onu köklü surətdə dəyişdirməkdən ibarətdir. Artıq belə bir təcrübə də özünü göstərir ki, hər növbəti ildə keçirilən tədbirlərdə problemin müəyyən istiqaməti, məsələn, qızların təhsili, sağlamlığı, yaxud erkən ərə verilməsi və s. əsas götürülür.

Azərbaycanda qız uşaqlarına mənfi münasibət bir sıra ailələrin onları ana bətnində ikən məhv etməsində göstərir. Bunun nəticəsidir ki, yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 2000-ci ildəki 46,5 faizdən 2009-cu ildə 46 faizədək azaldı. 2013-cü ildə yeni doğulanlar arasında qızların sayı 46,4 faizədək, sonrakı dövrdə bir qədər də artsa belə oğlanların sayı yenə çox olaraq qalır. 2016-2017-ci illərdə doğulan körpələrin 46,8 faizini qızlar təşkil etdi. Hazırda həmin rəqəm yenə də 46,8 faizdir. Bu, yeni doğulan hər 100 qıza 114 oğlanın düşməsi deməkdir. Bioloji normaya görə isə bu nisbət 114 deyil, 105-107 olmalıdır.

Aydın məsələdir ki, doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Beləliklə, Azərbaycanda qadınların sayı getdikcə azalır. Hazırda qadınlar ölkə əhalisinin 50,2 faizini təşkil edir. Halbuki 15-16 il əvvəl bu rəqəm 51 faiz idi. Üzərində ciddi düşünməli fakt deyilmi?



Belə bir durumla qarşılaşmış ölkələrin keçdiyi yol göstərir ki, bu dinamika davam edərsə, Azərbaycanın da qarşısı çətin alına bilən ciddi problemlə üzləşəcəyinə böyük ehtimal var. Başqa sözlə, 20-30 ildən sonra azərbaycanlı oğlanlar üçün xaricdən gəlin gətirməli olarıq.

Gələcəkdə belə müşkül məsələ ilə üzləşməmək üçün ölkəmizdə bir sıra layihələr həyata keçirilir. Bu məsələ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və bir sıra digər qurumların diqqət mərkəzindədir. Bu, "Azərbaycan" qəzetinin də 20 ilə yaxındır vaxtaşırı müraciət etdiyi aktual mövzulardandır.

Azərbaycanda narahatlıq doğuran digər bir məsələ isə qızların erkən ərə verilməsidir. Ərə getməsi deyil, məhz ərə verilməsi, çünki belə hallar əsasən qızların öz seçimi ilə baş vermir. Onları tez ailə qurmağa valideynləri təhrik edirlər. Birdəfəlik dərk etmək lazımdır ki, erkən nikaha daxil olmaq təkcə qızların gələcəyini sual altına almır, bütövlükdə cəmiyyətə mənfi təsir göstərir. Belə ki, yeniyetmə qızlar artıq təhsillərini davam etdirə bilmir, savadsız qalır, heç bir peşəyə, sənətə yiyələnmir, cəmiyyət isə onların potensialından, elmə, iqtisadiyyata, mədəniyyətə və digər sahələrə verəcəyi faydadan məhrum olur. Erkən nikaha daxil olan qızlar bir çox halda ailədaxili şiddətə məruz qalırlar. Erkən evlilik qızların səhhətinə də böyük zərbə vurur, bu, hətta ana və uşaq ölümləri ilə nəticələnir.

Dünyanın müxtəlif yerlərində insanların ümumi fikri belədir ki, qız uşaqlarını qorumağın ən yaxşı yollarından biri təhsildən keçir. Onlar təhsil almadıqda cəmiyyət çoxistiqamətli eroziyaya məruz qalır. Ona görə də qızların təhsil alması qarşısındakı bütün maneələr aradan qaldırılmalıdır. Təəssüf ki, dünyada hər üç qız uşağından birinin təhsil almaq hüququ zorakılıq, yoxsulluq və irqçilik səbəbindən pozulur.

Qız uşaqlarının daha yaxşı təhsil almaları və onların həyat şəraitinin yaxşılaşdırılması hər bir ölkənin prioriteti olmalıdır. Təqdirəlayiq haldır ki, Azərbaycanda qızların təhsilinə böyük diqqət göstərilir. Hazırda ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 82,7 faizi, orta ixtisas təhsil müəssisələrində 79,4 faizi, ali təhsil müəssisələrində 58,7 faizi, həkimlərin isə üçdə ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsil alanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 62,5 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını qızlar təşkil edir.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən, 47,9 faiz təşkil edir. Dövlət qulluğu, sahibkarlıq və digər sahələrdə çalışanlar arasında qadınların xüsusi çəkisi getdikcə artır.

Qız və oğlan uşaqları arasında ayrı-seçkilik salan bəzi insanlar isə özlərinin şüurlarında mütləq müsbət dəyişiklik etməlidirlər. Çünki qız olan evdə səliqə-sahman göz oxşayar, xoş ab-hava hökm sürər. Nənələrimiz deyərdilər ki, qız uşağının ayağı sayalı olar, onun dünyaya gəlişi ilə evə ruzi-bərəkət gələr. Qız həmişə qayğıkeşdir. Ata-ananın başı ağrıyanda yastığı yanında keşik çəkən də qız övladı olur.

Arzu edək ki, qızlara bütün sahələrdə, həmişə, hər yerdə qayğıkeş münasibət bəslənsin. Bu məsələ dövlətimizin böyük gələcəyə hesablanmış sosial-iqtisadi siyasətində mühüm yer tutur. Dinimiz də qız uşaqlarına ən ülvi münasibət bəsləməyə çağırır. Xalqımızın mentalitetində, milli-mənəvi dəyərlərində, ailə ənənələrində qız uşaqlarına qayğı və sevgiyə xüsusi önəm verilir. Axı bu gün incə bir çiçək - sevimli bir körpə olan qızlarımızın hər biri sabahın anasıdır! Yeni nəsilləri o tərbiyə edəcək, gələcəyin dahilərini və qəhrəmanlarını da dünyaya o bəxş edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bolqarıstanda "Şuşa - Azərbaycanın tarixi və mədəni incisi" adlı fotosərgi açılıb




**Oktyabrın 8-10-da Bolqarıstanın Veliko Tırnovo şəhərində keçirilən XIX Beynəlxalq Mədəni Turizm sərgisində "Şuşa - Azərbaycanın tarixi və mədəni incisi" adlı fotosərginin açılışı baş tutub.**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Bolqarıstandakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, sərgidə səfirliyin təşəbbüsü və Bakı Media Mərkəzinin dəstəyi ilə Şuşanın füsunkar təbiətini, tarixi abidələrini və özünəməxsus rəngarəng arxitekturasını əks etdirən fotoşəkillər nümayiş etdirilib.

Ölkəmizin Bolqarıstandakı səfiri Hüseyn Hüseynov Şuşanın Azərbaycanın tarixində və mədəniyyətində tutduğu əvəzsiz yeri, zamanında Qafqazın ticari və iqtisadi mərkəzlərindən biri olması, Şərq ədəbiyyatına və incəsənətinə verdiyi töhfələr barədə danışıb.

Şuşanın 30 ilə yaxın işğalından sonra 2020-ci ildə azad edildiyini və 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı elan olunduğunu deyən səfir vurğulayıb ki, şəhər Prezident İlham Əliyevin bilavasitə nəzarəti altında bərpa edilərək yenidən təkcə Azərbaycanın deyil, bütün Qafqazın parlaq incisinə çevrilib.

Həmçinin səfirlik tərəfindən sərginin Veliko Tırnovo şəhərində keçirilən turizm bölümündə Azərbaycanın mədəni turizm potensialını təşviq edən milli stend sərgilənib, ölkəmizin gözəl təbiətini, qədim tarixini və parlaq adət-ənənələrini əks etdirən fotoşəkillər, milli suvenirlər və xalılar nümayiş etdirilib, qonaqlara onlar barədə ətraflı məlumat verilib, eyni zamanda milli mətbəx nümunələri təqdim olunub.

Xatırladaq ki, hər il Bolqarıstan Respublikasının turizm naziri, mərkəzi və yerli hakimiyyət orqanlarının rəhbərləri, 10-dan çox ölkənin mədəniyyət və turizm sahəsi üzrə rəsmiləri, otuzdan çox yerli və beynəlxalq bələdiyyə nümayəndələrinin iştirakı ilə keçirilən Beynəlxalq Mədəni Turizm sərgisi Balkan regionunda bu sahədə ixtisaslaşmış yeganə sərgi platformasını təşkil edir.









# Payız depressiyasına necə düşməyək?

**Mövsüm dəyişiklikləri insanların sosial həyatına, əhvali-ruhiyyəsinə, enerji tənzimləməsinə, yuxu müddəti və qida qəbuluna birbaşa təsir edir. Hər 20 insandan biri mövsümi depressiyadan əziyyət çəkir.**

Mövsümi depressiya fəsil dəyişikliyi zamanı, xüsusən payız və qış aylarında meydana çıxan depressiya növüdür. Depressiyanın bu növündən əsasən 18-30 yaşlı insanlar əziyyət çəkirlər. Araşdırmalar göstərir ki, qadınlar mövsümi depressiyadan kişilərə nisbətən daha çox problem yaşayırlar. Bu, hormonal dəyişikliklər və qadınların emosionallığının daha yüksək olması ilə əlaqələndirilir. Gün işığının azalması, insanların daha çox evdə qalması və sosial fəaliyyətlərin məhdudlaşması kimi faktorlar emosional vəziyyətə təsir edərək depressiya simptomlarını artırır.



### İki həftədən çox çəkərsə...

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmovun sözlərinə görə, mövsümi depressiyanın əsas simptomları enerji azlığı, yorğunluq, yuxusuzluq və ya həddən artıq yuxu istəyi, motivasiyanın azalması, şirniyyat və karbonhidratlı qidalara meyillilik, kədər, ümidsizlik, stres, sosial fəaliyyətdən uzaqlaşma və tək qalmaq istəyidir: "Daha az gün işığı alan ölkələrdə, xüsusilə şimalda yaşayan insanlar mövsümi depressiyaya meyilli olurlar. Gün işığı azaldıqca bədəndə serotoninin səviyyəsi düşür ki, bu da depressiya riskini artırır".

Psixoloq bildirib ki, psixi sağlamlıq problemlərindən əziyyət çəkən insanlarda mövsümi depressiya riski daha yüksəkdir. Habelə ailəsində depressiya yaşayan insanlar daha çox risk qrupuna daxildirlər.

Mövsümi depressiya müxtəlif simptomlarla özünü göstərir və həm emosional, həm də fiziki dəyişikliklərə səbəb olur. Elnur Rüstəmov bildirib ki, bu problemdən əziyyət çəkən insan özünü həmişə kədərli və ümidsiz hiss edir. Bu hisslər günlər, hətta həftələrlə davam edə bilər. Onlar əvvəllər həzz aldığı fəaliyyətlərə artıq maraq göstərmir, özlərini daim dəyərsiz və günahkar hiss edirlər. Bu hiss qidalanmaya da birbaşa təsir edir. Yemək istəyi azalır və ya əksinə, artır. Bu da çəki azalması və ya artması ilə nəticələnir.

Depressiyada olan şəxsdə narahatlıq hissi artır və lüzumsuz məsələlərə belə kəskin reaksiya verir. Yaddaş zəifliyi, qərarvermədə çətinlik və konsentrasiyanın pozulması da mövsümi depressiyanın əlamətləri arasında yer alır. Bu dövrdə insan ailə üzvlərindən, dostlarından və ictimai fəaliyyətlərdən uzaqlaşa bilər. Özünü təcridetmə meyli artır, ən sadə işlər belə yorucu gəlir. İnsan özünü həmişə yorğun hiss edir, bu da gündəlik fəaliyyətini çətinləşdirir.

Mövsümi depressiyada olan insanın üzləşdiyi ən önəmli problemlərdən biri yuxu nizamının pozulmasıdır. Bu zaman insan ya həddindən artıq yatmaq istəyir, ya da yuxusuzluqdan əziyyət çəkir. Gecə tez-tez yuxudan oyanma halları baş verir. Qısa yuxu müddətləri nəticəsində də bədəndə əlavə gərginlik yaranır.

Psixoloq qeyd edib ki, depressiya simptomlarından bir neçəsi iki həftədən artıq davam edərsə, peşəkar psixoloq və ya psixoterapevtlə görüşmək lazımdır. Depressiyanın diaqnozu və müalicəsi üçün psixoloji dəstək vacibdir, çünki hər bir insanın fərdi təcrübəsi fərqli olur və uyğun müdaxilə ilə vəziyyət yaxşılaşa bilər.

### Psixi sağlamlıq fiziki sağlamlıq qədər önəmlidir

Mövsümi depressiyaya yaxalanmamaq və ya onunla mübarizə aparmaq üçün əhəmiyyətli addımlar atıb, öz üzərimizdə çalışıb bəzi vərdişlərə yiyələnməliyik. Gündəlik fiziki aktivliyin bədəndə endorfini artırdığını deyən psixoloq gəzinti, qaçış, yoqa və ya rəqs kimi məşğuliyyətlərin həm bədən, həm də zehin üçün faydalı olduğunu vurğulayıb: "Hər gün qısamüddətli gəzintilər də zehni rahatlaşdırmağa və depressiya simptomlarını azaltmağa kömək edir. Stresi azaldan meditasiya və dərin nəfəsalma texnikalarını öyrənmək də əhvali-ruhiyyəni yaxşılaşdırır və narahatlıq hissini azaldır. Sağlam və balanslı qida rasionu enerji səviyyəsini artırır, ümumi ruh halını yaxşılaşdırır. Meyvə, tərəvəz və zülal əsaslı qidalara üstünlük vermək məsləhətdir.

Gün işığı azaldıqda D vitamini səviyyəsi aşağı düşür. Bu, depressiyaya təsir göstərən əsas faktorlardan biridir. Həkim məsləhəti ilə D vitamini əlavələri qəbul etmək faydalı ola bilər. Hər gün eyni saatda yatmaq və oyanmaq bədən ritminin balansda qalmasına kömək edir. Gecə yuxusu dərin və keyfiyyətli olduqda, insanın ruh halı daha yaxşı olur".

Sosial əlaqələri gücləndirməyin vacibliyini vurğulayan Elnur Rüstəmovun sözlərinə görə, ailə üzvləri və dostlarla görüşmək, söhbət etmək dəstək hissini artırır və təkliyi aradan qaldırır. Sosial dəstək depressiyanın azalmasına kömək edən əsas faktorlardan biridir. Maraq dairələrinizə uyğun könüllü qrup fəaliyyətlərində iştirak etmək inasna özünü daha yaxşı hiss etməyə, həm də yeni dostlar qazanmağa şərait yaradır. Yeni fəaliyyətlər qazanmaq psixoloji vəziyyətə olduqca müsbət təsir göstərir. Gündəlik həyatda kiçik hədəflər qoymaq və bu hədəflərə nail olmaq fərdin özünü daha pozitiv hiss etməyə kömək edir. Hər gün qısa bir fəaliyyət planı hazırlamaq və bu plana sadiq qalmaq həm iradəni gücləndirir, həm də ruh halını yaxşılaşdırır. Unutmamaq lazımdır ki, psixi sağlamlıq fiziki sağlamlıq qədər önəmlidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "Makron Fransanı uçuruma aparır"

## Nikola Düpon-Enyan: "Vəziyyətin ağırlığı hökumətin buraxılmasını tələb edir"








**"Fransa prezidenti Emmanuel Makron və hökuməti düşünülməmiş hərəkətləri ilə ölkəni məhv edirlər". Bunu deyən tanınmış siyasi xadim, "Qalx, Fransa" Partiyasının lideri Nikola Düpon-Enyan vətəninin uçuruma yuvarlandığını bildirib: "Ölkəm Fransanın vaxt itirməyə və uçuruma yaxınlaşmağa davam etməsini qəbul edə bilmirəm. Təhlükəsizlik, iqtisadi və maliyyə vəziyyəti kifayət qədər ciddidir və biz həmvətənlərimizin baş verənlərə gözlərini açmaq üçün mümkün olan hər şeyi etməliyik. Onların çoxu artıq bundan xəbərdardır. Xüsusilə yeni hökumətin etdiklərini dayandırmaq lazımdır".**




Düpon-Enyan qeyd edib ki, "gəminin aysberqlə toqquşmaq üzrə olduğu" bir vaxtda Fransa siyasi dairələrinin hərəkətsizliyi onu heyrətə gətirib və vəziyyətin ağırlığı hökumətin buraxılmasını tələb edir.

Onun sözlərinə görə, ölkənin Nazirlər Kabinetinin yeni rəhbəri, Makronun himayə etdiyi Mişel Barnye insanların istədiklərinin tam əksini deyir və xüsusilə miqrasiya ilə bağlı Avropa paktına dəstək ifadə edir. Bu baxımdan siyasətçi sual verir ki, niyə Avropa İttifaqından başqa hər yerdə sərhəd nəzarəti qurulur və xarici vətəndaşlar cinayət törətdiklərinə görə ölkədən çıxarılır?

Düpon-Enyan həmçinin Fransa liderinin impiçmenti ilə bağlı cəhdin uğursuzluğundan təəssüfləndiyini bildirib. O, Makronun hakimiyyəti dövründə Fransanın dövlət borcunun 1 milyard avrodan çox artdığına diqqət çəkib. Bundan əlavə, pariya sədri Parisin, Fransanın kənd təsərrüfatı və sənayesinin məhvi ilə birlikdə Ukraynadakı münaqişədə faktiki iştirakını dəhşətli adlandırıb.

Sabiq Avropa komissarı və Fransa Xarici İşlər Nazirliyinin keçmiş rəhbəri Mişel Barnye ötən ayın 5-də Fransanın yeni baş naziri təyin edilib. Qərar ölkədəki bir sıra siyasətçilərin narazılığına səbəb olub. Xüsusilə ifrat sağçı "Milli Birlik" Partiyasının lideri Cordan Bardella bildirib ki, Barnye Makronun siyasətini davam etdirsə, hökumət yıxılacaq. Bundan əlavə, ölkənin hazırkı kursu ilə əlaqədar olaraq, fransızlar sentyabrın 7 və 21-də kütləvi etiraz aksiyalarına çıxıblar.

Son məlumata görə, Fransada yük maşını sürücüləri Elzas bölgəsinin əsas magistral yolunda hərəkəti bağlayıblar. Fəallar 2027-ci ildən tətbiq edilməsi planlaşdırılan ağır yük daşıyan avtomobillərin yeni vergiyə cəlb edilməsinə etiraz edirlər. Ehtimal olunur ki, rüsumların məbləği hər kilometrə 15 avrosent sxeminə əsasən hesablanacaq.

Nümayişçilər hesab edirlər ki, bəzi şirkətlər bağlanma riski ilə üzləşə bilər, yerli hakimiyyət isə yeni qaydaların tranzit yük maşınlarının yollarda hərəkətini azaltmağa kömək edəcəyinə əmindir. Hər gün 10 minə qədər yük maşını əsas magistral yolda hərəkət edir. Vergi məsələsi ilə bağlı qərar oktyabrın 21-də Yuxarı və Aşağı Reyn departamentlərinin şuralarını birləşdirən Elzas Avropa Birliyinin plenar assambleyasında qəbul ediləcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

**28 oktyabr 2024-cü il saat 15:00-a təyin edilmiş Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında keçiriləcək "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə dəyişikliklər edilmişdir.**

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. ***"Səba"ASC-nin ləğv edilməsi, ləğvetmə komissiyası (təsviyəçi), qanunvericilikdə nəzərdə tutulmuş qaydada ləğvetmənin başa çatdırılması və ləğvetmədən sonra onun aktivlərinin səhmdarlar arasında bölüşdürülməsi barədə.***
2. ***"Səba" ASC-nin Direktorlar Şurası barədə.***
3. ***"Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə kredit öhdəliyinin ötürülməsinə dair əqd barədə.***
4. ***"Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə məxsus əmlakın ipoteka ilə yüklü edilməsinə dair əqd barədə.***
5. ***"Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-nin nizamnamə kapitalındakı "Səba" ASC-yə məxsus payların satılmasına dair əqd barədə.***
6. ***"Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Qarabağ Taxıl" MMC-nin birgə təsisçiliyi ilə yaradılmış "Qarabağ Toxum" MMC-nin nizamnamə kapitalındakı "Qarabağ Taxıl" MMC-yə məxsus payların satılmasına dair əqd barədə.***
7. ***"Səba" ASC-nin törəmə cəmiyyəti olan "Qarabağ Taxıl" MMC-nin ötən illərin yığılmış mənfəətinə əsasən dividendlərin elan edilməsi barədə.***
8. ***"Səba" ASC-nin əvvəllər emissiya edilib yerləşdirilmiş və geri alınmış səhmləri barədə.***
9. ***"Səba"ASC-nin və onun törəmə cəmiyyətləri olan "Qarabağ Taxıl" MMC-nin, "Biləsuvar Aqro" MMC-nin mövcud olan kreditor öhdəliklərini icra etmək və cari təsərrüfat fəaliyyətlərinin maliyyələşdirilməsini təmin etmək məqsədilə "Qarabağ Taxıl" MMC-nin mülkiyyətində olan Kürdəmir və Ağsu rayonlarının ərazilərində yerləşən torpaq sahələrindən ibarət daşınmaz əmlaklarının və həmin sahələrdə mövcud olan "Pivot" tipli suvarma sistemlərindən ibarət əsas vəsaitlərinin satılması barədə.***
10. ***"Səba" ASC-nin birgə təsisçiliyi ilə yaradılmış "Biləsuvar Aqro" MMC-nin nizamnamə kapitalındakı payların satılması barədə.***
11. ***"Səba" ASC-nin nizamnamə kapitalındakı minoritar səhmdarlara məxsus səhmlərin geri alınması barədə.***
12. ***"Səba" ASC-nin Nizamnaməsinin yeni redaksiyası barədə.***

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

*Əlaqə telefonu: +994124044441.*
*Ünvan: AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti,1.*

***"Səba"ASC-nin İdarə Heyəti***



# "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə

18 noyabr 2024-cü il, saat 11:00-da Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən "Bakı Sığorta" ASC-nin Baş ofisində cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən inzibati binanın 6-cı mərtəbəsində) həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

***"Bakı Sığorta" ASC***



# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ümidləri puç olan keşiş

## Ermənistanda müxalif hərəkatını dəstəkləyən sahibkarlar təzyiq altındadırlar

**Ermənistanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir. Keşiş Baqrat Qalstanyanın rəhbərlik etdiyi etirazlar bir neçə gündür başlasa da, miqyas baxımından hələ də revanşistlərin arzuladığı səviyyədə deyil.**





Dünən İrəvanda Xarici İşlər Nazirliyinin binasının qarşısında polislə etirazçılar arasında toqquşmalar başlayıb. Ölkənin polisi etirazçılara son xəbərdarlıq edib. Bildirilir ki, etirazçılar aksiyalarını dayandırmasalar, xüsusi vasitələrdən istifadə olunacaq. Tərəflər bir-birinə butulka atıblar. Nəticədə hüquq-mühafizə orqanlarının əməkdaşları həbslərə başlayıblar.

Müxalifətçilər etirazlarına səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

"Hraparak" qəzeti yazıb ki, keşiş Baqratın rəhbərlik etdiyi müxalif hərəkat artıq eyni miqyasda olmasa da, on minlərlə insan etirazlarda iştirak etməsə də, küçə fəaliyyəti hələ də hakimiyyəti narahat edir. Onlar lupalardan istifadə edərək, hərəkatı dəstəkləyən iş adamlarını axtarıb tapmaqla məşğuldurlar. Qəzetin iddiasına görə, hökumət bu məqsədlə təhlükəsizlik qüvvələrini və vergi orqanlarını prosesə cəlb edib. Məsələn, bir müddət əvvəl hərəkatın liderlərindən birinin qardaşı, deputat Qarnik Danielyanın şirkətində axtarış aparılıb. Danielyan bu faktı təkzib etməsə də, təfərrüatları açıqlamaq istəməyib.

Onu da qeyd edək ki, Ermənistanda hakim "Mülki müqavilə" Partiyasının deputatları kilsə əmlakının vergiyə cəlb edilməsi ilə bağlı qanun layihəsi hazırlayırlar. "4rd.am" nəşrinin xəbərinə görə, "Mülki müqavilə" Partiyasından deputat Tsovinar Vardanyan bildirib ki, hələ hazır sənədlər yoxdur, lakin bu istiqamətdə iş artıq aparılır: "Kilsə vergi ödəyicisidir, lakin söhbətin nədən getdiyini anlamaq lazımdır. Ola bilsin kilsə işçiləri gəlir vergisi ödəyirlər, bu, yaxşıdır. Amma deputatlar indi kilsənin idarə etdiyi minlərlə əmlakı araşdırırlar".

Bu arada baş nazir Nikol Paşinyan özünü müxalif hərəkatının lideri sayan və hakimiyyəti zorla devirmək niyyətini gizlətməyən Baqrat Qalstanyanla məzələnib. Baş nazir deyib ki, əgər keşiş rəhbərliklə görüşmək istəyirsə, hamı kimi qəbula yazılmalıdır. Bu, əlbəttə, ölkə rəhbərinin radikal müxalifəti nümayişkaranə şəkildə aşağılamasının və onu ciddiyə almamasının təzahürüdür.

Göründüyü kimi, revanşistlər kilsənin imkanlarından istifadə etməyə çalışırlar. Nəzərə alaq ki, Ermənistan kilsəsi kifayət qədər nüfuza və gücə sahibdir. Bu həm də o anlama gəlir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə faktorundan yararlanmaqda israr edirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**Yeni Azərbaycan Partiyası tərəfindən Nurlan Oktay oğlu Ataşovun adına verilmiş 665423 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

Ramil Usubov istefada olan polis polkovniki Namiq İsmayılova oğlu

**CAVİD İSMAYILZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi baş məsləhətçi Namiq İsmayılova oğlu

**CAVİD İSMAYILZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**MƏZAHİR SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı Allahverdi Novruzova əzizi

**CAVİD İSMAYILZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4168**
**Sifariş 2285**

**Qiyməti 60 qəpik**